# Aİ-92 benzin gömrük rüsumundan azad edilib

### Aksiz dərəcəsi 200 manatdan 1 manata endirilib



**Azərbaycana gətirilən Aİ-92 markalı benzin gömrük rüsumundan azad edilib.**

Bu, Nazirlər Kabinetinin 29 yanvar tarixli qərarı ilə "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə edilən dəyişiklikdə əksini tapıb.

(səh.2)



## Lökbatanda məktəbli qız intihar etdi

**Bakıda məktəbli qız özünü asıb.**

Hadisə paytaxtın Qaradağ rayonu, Lökbatan qəsəbəsində baş verib. Qəsəbə sakini 16 yaşlı Möminə Xəlil qızı Qəribli yaşadığı evdə özünü asaraq intihar edib. Onun özünə qəsd etməsinin səbəbləri hələlik məlum deyil.

*Faktla bağlı Qaradağ Rayon Prokurorluğunda araşdırma aparılır.*

❒ № 18 (5540), 2022-ci il

Qiymətı 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 fevral 2022-ci il (çərşənbə axşamı)



# Kəlbəcərdə itkin düşən baş leytenantın nəşi tapılıb

### Fuad Bağırova şəhid statusu veriləcək

**İtkin düşən baş leytenant Fuad Bağırovun nəşi tapılıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən bölmələrinin şəxsi heyəti və xüsusi texnikanın cəlb olunması, eləcə də Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının iştirakı ilə aparılan axtarış-xilasetmə tədbirləri nəticəsində itkin düşən baş leytenant Bağırov Fuad Allahverdi oğlunun nəşi yanvarın 31-i saat 12:30 radələrində tapılaraq müvafiq qaydada ərazidən təxliyə edilib.

(səh.3)



## Prezidentdən sərt ismarıc

### "Ermənistanın yenə də Azərbaycan üçün təhdidə çevrildiyini görsək, onu yerindəcə məhv edəcəyik"

**"Ermənistanı diz çökdürdük, məğlub etdik". Bunu Prezident İlham Əliyev Gəncədə səfərdə olarkən deyib.**

Dövlət başçısı bildirib ki, biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir: "İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb.

(səh.2)

## Məhdudiyyət ləğv olundu

### Vətəndaşlar Şuşa və Ağdama istənilən qədər səfər edə biləcəklər



**Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə geniş abadlıq-quruculuq işlərinə start verilib.**

Müharibədən dərhal sonra çox qısa vaxtda Azərbaycan ermənilər tərəfindən vandallığa məruz qalmış ərazilərimizi minalardan təmizləməyə, infrastruktur layihələri həyata keçirməyə başlayıb. Azad olunmuş Füzuli rayonu ərazisində cəmi 8 ay ərzində beynəlxalq hava limanı test uçuşlarına başlayıb.

(səh.6)

# NATO-dan etiraf

## Alyans üzvləri arasında fikir ayrılıqları var



**NATO müttəfiqləri arasında fikir ayrılıqları var. Bunu təşkilatın baş katibi Yens Stoltenberq bazar ertəsi The Washington Post-un təşkil etdiyi onlayn müzakirə zamanı etiraf edib.**

Bununla belə, onun sözlərinə görə, alyans üzvləri birlik nümayiş etdirirlər.

"NATO Atlantikanın hər iki tərəfində yerləşən 30 dövləti birləşdirən ittifaqdır. Əlbəttə, bir çox məsələlərdə fikir ayrılıqları var. NATO yaranandan belə olub, 1956-cı ildə Süveyş böhranı zamanı, ya da 1960-cı illərdə Fransanın alyansı tərk etmək istəyəndə, yaxud 2003-cü il müharibəsi zamanı (ABŞ-ın İraqdakı əməliyyatları - red.). Ona görə də fikir ayrılıqları olub, var və olacaq. Lakin NATO-nun gücü birlikdədir. (Trend) Biz hər zaman eyni məqsədlərimiz ətrafında birləşməyi bacarmışıq", - deyə Stoltenberq vurğulayıb.

Baş katib eyni zamanda vurğulayıb ki, NATO Rusiya ilə dialoqa hazır olduğunu açıq şəkildə bildirib. O, deyib ki, Rusiyanın hərbi güclənməsi izaholunmaz və əsassızdır:

"Rusiya bunu izah etməli, deeskalasiyaya və NATO müttəfiqləri ilə ciddi siyasi dialoqa başlamalıdır".

Y.Stoltenberq əlavə edib ki, Rusiya-NATO Şurası gərginliyinin həlli siyasi müstəvidə olmalıdır.



## Ərazilərin minalardan təmizlənməsi çox vacib məsələdir

### Böyük Britaniyanın Azərbaycandakı səfiri açıqlama verib

**Ərazilərin minalardan təmizlənməsi çox vacib məsələdir. Buz bu məsələdə öz töhfəmizi veririk.**

Trend-in məlumatına görə, bunu Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp "Postmünaqişə dövründə bərpa işlərində qadınların rolu" mövzusunda keçirilən konfransda deyib.

O qeyd edib ki, bundan sonra da Azərbaycana öz dəstəklərini davam etdirəcəklər. "Biz həmçinin qadınların boş iş yerlərinə çıxışını da təmin etməliyik ", - o vurğulayıb.

# "Omikron"a yoluxma fevral ayında pik həddə olacaq

### Mart ayının əvvəlindən isə enməyə başlayacaq

**Səhiyyə Nazirliyi "Omikron"la bağlı yenidən əhaliyə müraciət edib.**

Nazirliyin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva koronavirus infeksiyasına qarşı ən yüksək müdafiənin peyvənddən sonra yaranan anticisimlərin verdiyini bildirib. O qeyd edib ki, "Omikron" ştamına yoluxanlar, xüsusilə də peyvənd olunanlar xəstəliyi daha yüngül keçirirlər:

"Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin elmi araşdırmaları göstərir ki, vaksinin buster dozası 50 yaşdan yuxarı insanlarda "Omikron" ştamına qarşı müdafiəni 95 faiz artırır.

(səh.3)




## Bakıda Türkiyə bayrağına hörmətsizlik edən şəxs 30 sutka həbs edildi



**Nizami Rayon Məhkəməsində Bakıda Türkiyə Respublikasının Dövlət Bayrağına hörmətsizlik edən Fuad İsmayılov barəsində məhkəmə prosesi keçirilib.**

Məhkəmənin qərarı ilə F.İsmayılov İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (Polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmamağa görə) maddəsi ilə təqsirli bilinərə 30 sutka inzibati qaydada həbs edilib.

*Qeyd edək ki, sosial şəbəkələrdə paytaxtın Nizami rayonu ərazisində qardaş ölkənin bayrağına qarşı hörmətsizlik edildiyi əks olunan video yayılmışdı. Polis tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri ilə görüntüdəki 1985-ci il təvəllüdlü Fuad İsmayılov qısa müddətdə saxlanılıb.*

## Daha 2 186 yeni yoluxma faktı qeydə alınıb

### 14 nəfər vəfat edib, 764 nəfər müalicə olunaraq sağalıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 186 yeni yoluxma faktı qeydə alınıb, 764 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 658 470 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 625 023 nəfər müalicə olunaraq sağalıb, 8 734 nəfər vəfat edib, aktiv xəstə sayı 24 713 nəfərdir.



## Rəsulzadə xalqın dəyəridir

### Rəis Rəsulzadə: "Onun irsi orta və ali məktəblərdə təbliğ olunmalıdır"

(səh.2)

## Hədəflər genişlənir

### Azərbaycan-Macarıstan arasında yeni görüşlər labüddür

(səh.4)





# Prezidentdən sərt ismarıc

## “Ermənistanın yenə də Azərbaycan üçün təhdidə çevrildiyini görsək, onu yerindəcə məhv edəcəyik”

**”Ermənistanı diz çökdürdük, məğlub etdik”. Bunu Prezident İlham Əliyev Gəncədə səfərdə olarkən deyib. Dövlət başçısı bildirib ki, biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir:**

”İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm ”Toçka-U”, həm ”SCUD” raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir”.

**“Sülh olmalıdır, ancaq erməni faşizmini, Xocalı qurbanlarını unutmamalıyıq”**

**Prezident deyib ki, müharibə başa çatıb:** ”Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq. Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın”.

**“İrəvanda faşist Njdenin abidəsi bu günə qədər sökülməyib”**

**Dövlət başçısı vurğulayıb ki, dəfələrlə erməni faşistləri haqqında öz çıxışlarında məsələ qaldırıb:** ”Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan verməmək olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır”. Prezident qeyd edib ki, buna son qoyulmalıdır: ”Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Ancaq əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol verməmək olmaz. İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib”.

**“Sarkisyan, Koçaryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar”**

**Dövlət başçısı vurğulayıb ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər:** ”Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Koçaryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Koçaryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndindən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspor təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməlidirlər, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşixislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir”.

> “Sarkisyan, Koçaryan kimi qorxaqlar indi Ermənistanda, Rusiyada baş qaldırırlar”

**İsmayıl**

# Azərbaycandan aldığımız qazın həcmini artırmışıq

## Rəcəb Tayyib Ərdoğan: “Bugünkü sıxıntıların öhdəsindən yenə biz gələcəyik”



**İrandan təbii qaz nəqlini bərpa etdik, Azərbaycandan aldığımız qazın həcmini də artırdıq.**

Bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə hökumətinin növbəti iclasından sonra xalqa müraciətində ifadə edib.

Gündəlikdə duran məsələlər, eləcə də inflyasiyaya qarşı tədbirlər və havaların mürəkkəb keçməsi ilə əlaqədar ölkədə enerji resurslarına artan tələbatın ödənilməsi istiqamətində atılan addımlar barədə ümumi məlumat verən dövlət başçısı əminliklə bildirib ki, Türkiyə enerji təchizatında çoxşaxəliliyi bundan sonra da təmin edəcək.

Mövcud problemlərin qətiyyətlə həll olunacağına əminliyini ifadə edən Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğan deyib: ”20 ildir bu ölkənin və bu millətin əsrlərdən qalan məsələlərini biz necə çözdükə, bugünkü sıxıntıların öhdəsindən də yenə biz gələcəyik”.

*Qeyd edək ki, son günlər havaların şaxtalı keçməsi səbəbindən Türkiyədə enerjiyə olan tələbat artıb. Bundan başqa, İrandan idxal edilən qazın nəqlində yaranmış fasilə də müəyyən çətinliklərə səbəb olub. Hökumət əhaliyə ayrılan enerji təchizatında azaltmaya yol verməyib. Sənayenin təchizatı isə müəyyən limit qrafiki əsasında həyata keçirilib. Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, sənayeyə tətbiq olunan məhdudiyyət tədricən aradan qaldırılacaq.*



### Azərbaycanda valideynlik hüquqlarından məhrumetmə qaydası dəyişib

**Azərbaycanda valideynlik hüquqlarından məhrumetmə qaydasına dəyişiklik edilib.**

Bu, Prezident İlham Əliyevin dünən imzaladığı ”Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanunda öz əksini tapıb.

Dəyişikliyə əsasən, Ailə Məcəlləsinin 65.5-ci bəndi yeni redaksiyada verilib: ”Valideynlik hüquqlarından məhrumetmə barədə qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək ”Elektron məhkəmə” informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə ötürülür”.

*Qeyd edək ki, əvvəllər məhkəmənin valideynlik hüquqlarından məhrumetmə haqqında qətnaməsinin çıxarışı qanuni qüvvəyə mindikdən sonra üç gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına göndərilməliydi.*

# Rusiya və Çin əleyhinə səs verib

## BMT Təhlükəsizlik Şurası Ukrayna ilə bağlı iclas keçirmək üçün toplaşıb

**BMT Təhlükəsizlik Şurası Ukrayna ətrafında vəziyyətlə bağlı iclas keçirmək üçün toplaşıb.**

APA-nın məlumatına görə, Ukrayna ilə bağlı iclasın keçirilməsini daha əvvəl ABŞ tələb edib.

Prosessual səsvermə zamanı BMT Təhlükəsizlik Şurası iclasın keçirilməsinin lehinə çıxış edib. Səsvermənin lehinə 10 ölkə, əleyhinə Rusiya və Çin səs verib, üç ölkə isə bitərəf qalıb.

Şuranın sədri, Norveçin daimi nümayəndəsi Mona Juulun verdiyi məlumata görə, iclasda Ukrayna, Belarus, Litva və Polşa nümayəndələri iştirak edəcək.

# Gürcüstanın Baş naziri koronavirusa yoluxub



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili koronavirusun ”omikron” ştamına yoluxub.**

Bu barədə Gürcüstan hökumətinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, İ.Qaribaşvili özünü yaxşı hiss edir və işini distant qaydada davam etdirir.

Xatırladaq ki, İ.Qaribaşvili ötən ilin aprelində COVID-19-a yoluxub. O, koronavirus əleyhinə tam peyvənd olunub.

*Qeyd edək ki, bundan əvvəl Gürcüstan hökumətinin 4 naziri də koronavirusa yoluxub.*



### Rusiya və Fransa Prezidentləri arasında telefon danışığı olub

**Rusiya prezidenti Vladimir Putin fransalı həmkarı Emmanuel Makronla növbəti telefon danışığı aparıb.**

APA-nın Moskva müxbirinin Kremlin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, telefon danışığı zamanı Ukrayna ətrafındakı vəziyyət, Rusiyaya uzunmüddətli, hüquqi cəhətdən təmin edilmiş təhlükəsizlik zəmanətlərinin verilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi davam etdirilib.

Vladimir Putin bu problemlərə prinsipial yanaşmaları bir daha ətraflı şəkildə qeyd edib.

Telefonla gələcək təmaslar, habelə Rusiya və Fransa prezidentləri arasında şəxsi görüşün keçirilməsi imkanlarının operativ öyrənilməsi barədə razılıq əldə olunub.

*Qeyd edək ki, Putin yanvarın 28-də də Makronla telefonla danışıb.*

# Aİ-92 benzin gömrük rüsumundan azad edilib

## Aksiz dərəcəsi 200 manatdan 1 manata endirilib



**Azərbaycana gətirilən Aİ-92 markalı benzin gömrük rüsumundan azad edilib.**

Bu, Nazirlər Kabinetinin 29 yanvar tarixli qərarı ilə ”Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə edilən dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, fevralın 1-dən Azərbaycana idxal edilən 92 və ya daha çox oktan ədədi ilə (tədqiqat metodu ilə) avtomobil benzinin və 95-dən az oktan ədədi ilə (tədqiqat metodu ilə) avtomobil benzinin hər 1000 litri üçün 15 faiz idxal gömrük rüsumu ləğv olunur.

Nazirlər Kabinetinin ”Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə etdiyi dəyişikliyə əsasən isə fevralın 1-dən Azərbaycana gətirilən aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə mühərrik benzinlərinin 1 tonu üçün aksiz dərəcəsi 200 manatdan 1 manata endirilir.

Bu Qərar 2022-ci il 1 iyun tarixinədək qüvvədədir.



# Rəsulzadə xalqın dəyəridir

## Rəis Rəsulzadə: ”Onun irsi orta və ali məktəblərdə təbliğ olunmalıdır”

**Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 138-ci ildönümüdür.**

**M.Ə.Rəsulzadənin nəvəsi, tanınmış rəssam Rəis Rəsulzadə əlamətdar günlə bağlı ”Şərq”ə danışıb. O bildirib ki, Məhəmməd Əmin Rəsulzadənin doğum günü bütün Azərbaycan xalqı, Şərq dünyası, demokratik təfəkkürlü insanlar üçün böyük bir bayramdır:**

”O, sıradan bir dövlət xadimi deyil, eyni zamanda böyük azadlıq ideoloqudur. Ona qədərki dövrdə Azərbaycanın min illik tarixində ayrı-ayrı dövlətlər olsa da, Azərbaycan Xalq Cümhuriyyəti olmayıb. Şərqdə ilk dəfə AXC quran məhz M.Ə.Rəsulzadə olub. Müxtəlif dövrlərdə tarixi saxtalaşdırmağa cəhd edənlər olsa da, heç kim bu gerçəyi dəyişə bilməyib. Hətta bir ara vəziyyət o dərəcəyə gəlib çatıb ki, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynov, Nəsiman Yaqublu, Aydın Balayev və başqaları yığışıb ”Tarixi saxtalaşdıranlara cavab” adlı bir broşür nəşr ediblər. Bilirik ki, bir dövlətin himni, bayrağı, atributları onun dəyəridir. Onları dəyişmək olmaz. Rəsulzadə də eynilə belədir. Ona toxunmaq yolverilməzdir. O, xalqın dəyəridir”.

**R.Rəsulzadə Birinci Dünya müharibəsinin davam etdiyi, ayrı-ayrı dövlətlər arasında çaxnaşmanın baş aldığı bir dönəmdə dövlətin yaranmasının böyük bir tarixi sıçrayış olduğunu vurğulayıb:**

”M.Ə.Rəsulzadə və onun silahdaşları bunu bacardılar. Heç nədən dövlət, həmin dövlətin bütün strukturlarını yaratmaq onun ideologiyasını qəbul etdirmək adi bir məsələ deyildi. Hətta beynəlxalq aləmdə həmin dövləti tanıtdırmaq böyük nailiyyətdir. O zaman millətçilik, demokratiya, müstəqillik dəyərləri çərçivəsində olduqca əhəmiyyətli işlər görülüb”.

Tanınmış rəssam AXC dövründə fəaliyyətə başlayan ilk parlamentə diqqət çəkib:

”M.Ə.Rəsulzadə və tərəfdaşlarının yaratdığı Cümhuriyyətin parlamentində Azərbaycanda yaşayan bütün xalqlar təmsil olunurdu. Hazırda bizim Avropa ölkələrində olduğunu zənn etdiyimiz ən demokratik dəyərlər Azərbaycanda hələ o vaxt yaranıb və təbliğ olunurdu. AXC qurucuları dövlətdən heç ummadan öz həyatlarını, ailələrini, sərvətinin hər şeyini dövlət naminə qurban verən şəxslər olub. O dövrün ziyalılarının böyüklüyü də məhz bunda idi”.

**R.Rəsulzadə M.Ə.Rəsulzadənin nəinki Azərbaycan xalqının, ümumiyyətlə, türk dövlətlərinin böyük mücahidlərindən biri olduğunu söyləyib:**

”Onun irsi daha çox öyrənilməli, orta və ali məktəblərdə təbliğ olunmalıdır. Məsələyə ötəri deyil, daha dərindən yanaşmaq lazımdır. Bu bizim milli ideologiyamızdır. Həmin ideologiyada türkçülük, azərbaycançılıq, istiqlal prinsipləri və bütün dəyərlər yer alıb”.

**Günəş Mərd**

# “Rusiyada institutlarla, tələbələrlə işləmək lazımdır"

## Ermənilərin faşizmi qəhrəmanlaşdırılmasına biganə qalmaq olmaz



“Milli Elmlər Akademiyası, alimlərimiz, diaspora təşkilatlarımız ciddi və paralel çalışmalıdır”

İsmayıl Qocayev

**Yanvarın 28-də Rusiya Erməniləri İttifaqı faşist Qaregin Njde haqqında film nümayiş etdirməklə Ermənistan ordusunun yaranması gününü qeyd etmək istəyiblər. Lakin filmin yayımı ”Rusiya veteranları” Ümumrusiya İctimai Birliyinin şikayəti əsasında polisin müdaxiləsi ilə dayandırılıb.**

Ora toplaşanlar isə dağıdılıb. Rusiya veteranları Njdenin xatirəsini anmağı faşizmə qarşı vuruşan insanlara təhqir kimi qiymətləndiriblər. Ermənistanın Rusiyadakı səfirliyi isə film ətrafında baş verənləri ”ehtirasları süni şəkildə alovlandırmaq cəhdi” kimi qələmə verib. Səfirlik faşizmi təbliğ edən filmə haqq qazandırmağa çalışıb. Qeyd olunub ki, Qaregin Njdenin ”xatirəsinin təhqir edilməsi”ndən dərin təəssüf hissi keçirirlər. Ermənistan səfirliyi tarixi də saxtalaşdırıb və Njdenin 1948-ci ildə 4 maddə ilə ittiham edildiyini, ancaq bu maddələr içərisində ”faşizmə xidmət”in olmadığını bildirib. Bu barədə Rusiya arxivlərində rəsmi sənədlərin olmasına baxmayaraq, faşist Njdenin ”qəhrəmanlaşdırılması” və səfirliyin Rusiyaya meydan oxuması təəccüb yaradır. Xatırladaq ki, Prezident İlham Əliyev yanvarın 30-da Gəncə şəhərində səfərdə olan zaman faşist Njde haqqında filmin yayımının dayandırılmasına münasibət bildirib. Dövlət başçısı deyib ki, ilk dəfə bu məsələni siyasi müstəviyə məhz o gətirib: ”Əvvəlki illərdə dəfələrlə erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan vermək olmaz. Cəllad Njde ilə bağlı MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Ancaq Ermənistanda onun ”qəhrəmanlaşdırılması” gedir”. Ölkə rəhbəri qeyd edib ki, Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır: ”Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol vermək olmaz”.

**Milli Dirçəliş Hərəkatı Partiyasının rəhbəri, keçmiş millət vəkili Fərəc Quliyev ”Şərq”ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev ermənilərin faşizmi təbliğ etməsini beynəlxalq qurumların iclaslarında, televiziya çıxışlarında, xarici media orqanlarına müsahibələrində dəfələrlə gündəmə gətirib.** Partiya sədrinin sözlərinə görə, dövlət başçısı tarixçilərimizə də çağırış edib ki, tarixi ərazilərimiz, toponimlərimiz haqqında faktları aşkarlayaraq ortaya qoysunlar: ”Xatırlayırsızsa, ölkə rəhbəri toponimlərlə bağlı ermənilərin qondarma adı çəkiləndə buna düzəliş etdi. Tapşırıq verdi ki, məkanlar uydurma erməni sözləri ilə deyil, tarixi Azərbaycan adları ilə adlandırılsın. Bəzi məqamlarda alimlərimiz, bu sahəyə məsul insanlarımız hərəkətsizlik, susqunluq nümayiş etdirirlər. Bütün məsələlərlə birbaşa Prezident özü məşğul olmalı deyil. Zənn edirik ki, xarici dövlətlərdə, Rusiyada Azərbaycanla bağlı bütün həqiqətləri bilirlər. Düzdür, mütəxəssislər doğrulardan xəbərdardır, amma geniş ictimaiyyət çox məsələdən xəbərsizdir. Başqa dövlətin ərazisində baş verənləri qonşu ölkənin ictimaiyyəti tam bilmir. Amma bir xatırlatma hansısa məsələni gündəmə gətirməyə kifayət edir. Moskvadakı filmin nümayişi başlamış olsa belə polislərin müdaxiləsi ilə yarımçıq saxladılar. Ona görə də heç nəyə xırda hadisə kimi yanaşıb üzərindən sükutla keçməməliyik. Bütün məsələlərə reaksiyamız olmalıdır”.

**F.Quliyev bəyan edib ki, Milli Elmlər Akademiyası, alimlərimiz, diaspora təşkilatlarımız ciddi və paralel çalışmalıdır:** ”44 günlük müharibə dönəmində alimlərimizə, sənətkarlarımıza, tanınmış xadimlərimizə müraciət etdim. Dedim ki, dünyanın istənilən yerində öz sahəniz üzrə tanıdığınız, əlaqəniz olan şəxslərlə ünsiyyət qurun və Azərbaycan həqiqətlərini onlara göndərin. Bunlar çox mühüm məsələlərdir. İctimai rəyi formalaşdırmaq üçün ciddi fəaliyyət göstərməliyik.

Ermənilərin bütün qonşulara ərazi iddiası var. Hətta Rusiyaya belə ərazi iddiası irəli sürürlər. Bu məsələni yüksək səviyyədə rus ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Söhbət sosial şəbəkələrdəki təbliğatdan getmir. Rusiyadakı institutlarla, tələbələrlə işləmək lazımdır. Belə olarsa, rusların da məsələyə baxışı tədricən dəyişər. Hamımız bu məsələdə ciddi çalışmalıyıq ki, ermənilərin iç üzü açılsın. Ermənilərin mahiyyəti ifşa olunduqdan sonra layiq olduqları reaksiya ilə üzləşəcəklər. Hər ölkənin öz maraqları var, ermənilərə görə maraqlarını qurban verməli deyillər”.



# Qaz böhranı...

## Rusiya-Ukrayna gərginliyi fonunda Avropa özü Azərbaycana yaxınlaşmağa çalışır

**Avropa İttifaqı Rusiya ilə problemlər fonunda Azərbaycandan qaz tədarükünü artırmaq istəyini təsdiqləyib. Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarı Jozep Borrell deyib ki, diplomatiyanın uğursuz olacağı, Rusiyanın tədarükünü kəsmək və ya dayandırmaq qərarına gələcəyi təqdirdə ABŞ, Qətər və Azərbaycandan qaz tədarükünü artırmaq məsələsini nəzərdən keçirirlər.**

Ekspertlərə görə, Moskva Avropaya qarşı qaz rıçağından istifadə etsə də, tədarükü dayandırması ehtimalı azdır. Qaz bazarından pul qazanırlar, qaz rıçağından Avropanı itirmək yox, ”ələ keçirmək” üçün istifadə edirlər. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun bu həftə Vaşinqton və Bakıda qaz tədarükünün artırılması ilə bağlı müzakirələr aparacağı gözlənilir. Əlbəttə, bizim üçün vacib olan məqam rəsmi Bakının qazana biləcəkləridir. Birincisi, Azərbaycan qazı Avropa bazarında həcm baxımdan rus qazına tam alternativ olmasa da, mövcud situasiya Bakıya qaz ixracını artırmağa imkan verir. İkincisi, Avropada Bakının siyasi əhəmiyyəti artır. Bu, Moskva üçün də keçərlidir. Baş verənlər ”qaz müharibəsi”nin yenidən aktuallaşması və növbəti qışa qədər daha da kəskinləşməsi riskini gündəmə gətirir.

**İqtisadçı Pərviz Heydərov ”Şərq”ə deyib ki, Azərbaycan qazının həcminin Avropa bazarı üçün xeyli az olmasına baxmayaraq, siyasi-iqtisadi baxımdan çox əhəmiyyətlidir. Ekspertə görə, Cənub Qaz Dəhlizi Avropa üçün böyük əhəmiyyət kəsb edir:** ”Avropa uzun müddətdir Rusiyanın enerji asılılığından xilas olmağa çalışır. Şaxələndirilmiş idxal imkanlarına malik olmağa cəhd edir. Bunun ən gözəl əyani nümunəsini Azərbaycan dövləti ortaya qoyub. Cənub Qaz Dəhlizi ideyası Azərbaycana məxsusdur. Layihənin reallaşmasına Avropa loyal yanaşmadı və dəstək vermədi. Nəticədə dəhlizin reallaşmasının bütün yükü ideya müəllifi kimi Azərbaycanın üzərinə düşdü. TAP və TANAP-ın reallaşmasında Azərbaycan maddi cəhətdən çox əziyyət çəkdi. Amma layihə hazır olandan sonra ABŞ və Avropa bunu yüksək qiymətləndirməyə başladılar. İndi TAP-la daha çox maraqlanırlar. Avropa Qətərdən də qaz almağa çalışır. Lakin TAP onlar üçün göydəndüşmə nemətdir. O baxımdan Avropa ölkələri Azərbaycan qazının həcmini düşünmür. Sadəcə, Rusiyadan asılılığı azaltmaq və Azərbaycan üzərindən Orta Asiya resurslarına çıxış əldə etmək niyyəti güdürlər. Rusiya-Ukrayna gərginliyi fonunda Avropa özü Azərbaycana yaxınlaşmağa çalışır. Yaxın gələcəkdə transxəzər boru kəmərinin reallaşması üzərində böyük işlərə başlanacaq. Burada əsas hədəf Orta Asiya qaz resurslarının Rusiya vasitəsi ilə yox, Xəzər dənizi yolu ilə Avropaya daşınmasına nail olmaqdır. Bu isə əhəmiyyətli dərəcədə Avropanın Rusiyadan asılılığını azaldacaq”.

**P.Heydərovun fikrincə, Azərbaycan regional layihələrdə daha çox strateji məqsədlər güdür:** ”Cənub Qaz Dəhlizinin də maddi yükünü təkbaşına çəkməsinin mahiyyəti o idi ki, Azərbaycan enerji dəhlizləri üzərində önəmli tranzit ölkəsi rolunu oynasın. Təbii ki, burada ölkəmiz önəmli miqyasda maddi mənfəət də əldə edəcək”.

**İsmayıl Qocayev**

# "Omikron"a yoluxma fevral ayında pik həddə olacaq

## Mart ayının əvvəlindən isə enməyə başlayacaq



**Səhiyyə Nazirliyi ”Omikron”la bağlı yenidən əhaliyə müraciət edib. Nazirliyin Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva koronavirus infeksiyasına qarşı ən yüksək müdafiənin peyvənddən sonra yaranan anticisimlərin verdiyini bildirib. O qeyd edib ki, ”Omikron” ştamına yoluxanlar, xüsusilə də peyvənd olunanlar xəstəliyi daha yüngül keçirirlər:**

”Böyük Britaniyanın Sağlamlıq Təhlükəsizliyi Agentliyinin elmi araşdırmaları göstərir ki, vaksinin buster dozası 50 yaşdan yuxarı insanlarda ”Omikron” ştamına qarşı müdafiəni 95 faiz artırır. Eyni zamanda, vətəndaşlarda yeni ştama görə xəstəxanaya düşmək riskini 88 faiz azaldır. Araşdırmalara görə, yeni ştamın inkubasiya dövrü daha qısadır, lakin ”Omikron”la təkrar yoluxma riski ”Delta” virusla yoluxmadan bir neçə dəfə çoxdur”. Nazirlik rəsmisi deyib ki, yayılan yeni ştamdan qorunmaq üçün ikinci dozadan və yaxud xəstəliyə yoluxub sağaldıqdan 5 ay sonra gücləndirici (buster) doza ilə peyvəndlənmək vacibdir: ”Xatırladım ki, Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən peyvəndin 2-ci dozasının üzərindən 6 aydan çox keçmiş şəxslərin ”Peyvənd sertifikatı” fevralın 15-dən etibarlı hesab edilməyəcək. Vaksinasiya ilə yanaşı, xüsusi karantin rejiminin qaydalarına da (fiziki məsafənin gözlənilməsi, maskalardan istifadə və gigiyenik qaydalar) riayət olunmalıdır”.

**Həkim-infeksionist Mərdan Əliyev ”Şərq”ə açıqlamasında bildirdi ki, hazırda ”Omikron” ştammına yoluxmada artım müşahidə olunur və yoluxma silsilə şəkildə davam edir:**

- Yoluxma sayının artmasına qış fəslinin, havaların qeyri-sabit, soyuq keçməsinin də təsiri var. Lakin əsas səbəb ”Omikron”un yoluxuculuq sürətinin yüksək olmasıdır. Yoluxma sayı arta-arta gedir. Proqnozlara görə deyə bilərik ki, fevral ayında yoluxmanın pik həddi olacaq. Yoluxma sayı maksimum həddə çatacaq, bundan sonra isə yoluxmada enmə başlayacaq. Fevralın sonu, mart ayının əvvəllərində yoluxma sayında azalma müşahidə ediləcək. Bütün proseslərin gedişatı bu cür olur. Pik həddən sonra eniş başlayır.

### Həkim gücləndirilmiş doza peyvənd vurdurmağı məsləhət gördü

*Qeyd edək ki, ”Omikron” ştammına hazırda yoluxanlar arasında uşaqlar və gənclərin üstünlük təşkil etdiyi, yoluxmanın daha çox 30-39 yaş qrupuna aid olanlarda müşahidə edildiyi bildirilir. M.Əliyev qeyd etdi ki, hazırda azyaşlılar arasında yoluxma sayının çox olması uşaqların buvaxtadək ”Covid-19”-a yoluxmamasından irəli gəlir:*

- Uşaqlar və gənclər xaric, digər əhali qrupları həm ”Covid”ə yoluxdu, həm də peyvənd vurduranlar daha çox orta və ahıl yaş qrupuna aid olanlardır. Uşaqlara hələ ki, peyvənd göstərişi yoxdur. Ona görə də hazırda daha çox uşaqlar yoluxur. Amma ümumi baxıldıqda, ”Omikron”a yoluxmaya bütün yaş qruplarında rast gəlinir.

Həkim gücləndirilmiş doza peyvənd vurdurmağı məsləhət gördü:

- Buster adlanan gücləndirilmiş doza 3-cü dozadır. 2 doza peyvənd vurduranlara 3-cü dozanı vurdurmaq tövsiyə edilir. 4-cü doza barədə isə danışmaq isə hələ tezdir. Bununla bağlı da konkret göstəriş yoxdur. Kim istəsə, 4-cü dozanı da vurdura bilər.

**Məlahət Rzayeva**



# Türkiyə hökuməti Rəsulzadəyə Avropada maddi yardım edib

## Ona həm aylıq dolanışıq xərci, həm də səyahət xərcləri ödənilib

**”2014-cü ildən etibarən Azərbaycan Cümhuriyyəti və mühacirəti ilə bağlı Türkiyədə olan orijinal materialları toplamaqla məşğulam. Təbii ki, siyahımın ən başında Məhəmməd Əmin Rəsulzadəyə aid materiallar gəlir”. Bu barədə ”Şərq”ə Cümhuriyyət dövrünün tədqiqatçısı, araşdırmaçı-yazar, ”Çapar” dərgisinin baş redaktoru Dilqəm Əhməd deyib.**

Cümhuriyyət qurucularından olan, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 138-ci ildönümü ilə bağlı danışan Dilqəm Əhməd bildirib ki, Rəsulzadə ilə bağlı ötən illər ərzində xeyli materiallar toplayıb: ”7 ədəd fotoşəkil var. Bunlardan ikisi Rəsulzadənin Cümhuriyyət illərinə, biri Finlandiya, üçü Türkiyə, biri isə Avropada yaşadığı dövrə aiddir. Arxivimdə Polşada göndərdiyi üç açıqca məktub var ki, mövzusu səhhəti ilə bağlıdır, yaxın dostlarına bu barədə məlumat verib. Eləcə də Rəsulzadəyə göndərilmiş iki məktub-açıqca da əldə etmişəm. Həmin açıqcalar Cümhuriyyət tələbəsi Əli Yusifə və istiqlal şairi Gültəkinə məxsusdur. Özəlliklə Əmin Abid Gültəkinin məktubu çox qiymətlidir. Həmçinin arxivimdə iki ədəd imzalı kitabı mövcuddur. ”Azərbaycan Cümhuriyyəti” və ”Azərbaycan şairi Nizami” kitablarının imzalı nüsxələri arxivimin ən dəyərli materiallarındandır. Eyni zamanda Rəsulzadənin 34 fotoşəkildən ibarət dəfn albomu da kolleksiyamda var. Silahdaşları bütün dəfn prosesini fotolentə alıblar. Sağlığında çıxan orijinal kitablarının 95 faizi məndə mövcuddur”.

**D.Əhməd maddi imkansızlıq səbəbindən ala bilmədiyi materialların hələ də qaldığını vurğulayıb:** ”Rəsulzadəyə aid məktublar, ona göndərilmiş mühacir fotoşəkilləri, silahdaşlarına aid qiymətli orijinal sənədlər indi də satılmaqdadır. Dediklərim dağılan şəxsi arxivlərdir. Bir də dövlət arxivləri var ki, Türkiyədə bəzi sənədlərin üzərindən gizlilik götürülüb. Mən onlardan bəzilərini gördüm. Məsələn, sənədlərdən açıq-aşkar görünür ki, Türkiyə hökuməti Rəsulzadəyə Avropada maddi yardım edib. Ona həm aylıq dolanışıq xərci, həm də səyahət xərcləri ödənilib. Rəsulzadənin 140 illiyi ilə bağlı bir layihəmiz artıq başlayıb. Azərbaycanda ilk olacaq. Bu il də buna çalışacağıq. İnşallah, vaxtında yetişdirməyi planlayırıq”.

**İsmayıl Qocayev**



**İtkin düşən baş leytenant Fuad Bağırovun nəşi tapılıb.**

# Kəlbəcərdə itkin düşən baş leytenantın nəşi tapılıb

## Fuad Bağırova şəhid statusu veriləcək

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən bölmələrinin şəxsi heyəti və xüsusi texnikanın cəlb olunması, eləcə də Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının iştirakı ilə aparılan axtarış-xilasetmə tədbirləri nəticəsində itkin düşən baş leytenant Bağırov Fuad Allahverdi oğlunun nəşi yanvarın 31-i saat 12:30 radələrində tapılaraq müvafiq qaydada ərazidən təxliyə edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçumuzun yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Allah rəhmət eləsin!

Baş leytenant Fuad Bağırov Şirvan şəhərində dəfn olunacaq.

Qeyd edək ki, əslən Şirvan şəhərindən olan F.Bağırov ailəsi ilə birgə Gəncə şəhərində yaşayırmış. Onun 3 aylıq bir qızı yadigar qalıb.

Qanunvericiliyə uyğun olaraq xidmət zamanı həlak olmuş Bağırov Fuad Allahverdi oğluna şəhid statusu veriləcək.

Məlumatı Müdafiə Nazirliyindən təsdiq ediblər.

Qeyd edək ki, Kəlbəcər rayonu, Alagözlər kəndi yaxınlığında hava şəraitinin kəskin dəyişməsi ilə bağlı Azərbaycan ordusunun dörd hərbi qulluqçusu - baş leytenant Bağırov Fuad Allahverdi oğlu, MAHHXHQ kiçik çavuş Hüseynov Cavad Rauf oğlu, əsgər Hüseynov Maşallah Rövşən oğlu və əsgər Kərimov Yasin Yavər oğlu xidməti tapşırığını yerinə yetirən zaman ərazidə istiqaməti itirərək azıb.

Hərbi qulluqçularımızın tapılması məqsədilə şəxsi heyətin və xüsusi texnikanın cəlb olunması ilə keçirilən axtarışlar nəticəsində yanvarın 29-u səhər saatlarında kiçik çavuş C. Hüseynov, əsgər M. Hüseynov və əsgər Y. Kərimov tapılıb. Onlar hazırda Bakıda hərbi hospitala yerləşdirilərək həkim nəzarətinə götürülüb.

# Zelenski narazıdır

## Qərb Ukraynada müharibə olacaq təəssüratını yaradır



**Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya ilə yaşanan gərginliyə görə Qərbi, konkret ABŞ-ı ittiham edib. Zelenski deyib ki, Qərb sanki sabah Ukraynada müharibə olacaq təəssüratı yaradır. Prezident bəyan edib ki, vəziyyət heç də Vaşinqtonun göstərmək istədiyi kimi deyil:**

"Rusiya ilə əvvəl yaşanan gərginlikdən daha artıq nələrsə görmürük". Ölkə rəhbəri müharibə söz-söhbətinin Ukraynanın iqtisadiyyatına da zərər verdiyini söyləyib. Həmçinin, əlavə edib ki, Amerika Prezidenti Co Bayden bölgədəki vəziyyəti vasitəçilərdən deyil, birbaşa özü öyrənməlidir. Bu arada Ukraynanın Müdafiə naziri Aleksey Reznikov rusiyalı həmkarı Sergey Şoyqu ilə görüşə biləcəyinin anonsunu verib. Nazir qeyd edib ki, NATO və ya Avropa İttifaqı təşəbbüs göstərərsə, Brüssel və ya Münhendə belə görüş mümkündür". Reznikov Ukraynanın Rusiya üçün təhlükə olmadığını vurğulayıb: "Mən görüşməyə, danışmağa, onların suallarına cavab verməyə hazıram. Təbii ki, güclü moderatorların, eyni səviyyəli vasitəçilərin olması lazımdır. Prezidentlər, siyasi müşavirlər səviyyəsində "Normandiya formatı"nda görüşlər keçirilir. Niyə digər ölkələrin müdafiə nazirlərinin iştirakı ilə təmas olmasın?!". KTMT-nin baş katibi Stanislav Zas da bildirib ki, heç kim Rusiya ilə Ukrayna, o cümlədən regionun digər dövlətləri arasında münasibətlərin kəskinləşməsində maraqlı deyil: "Heç kim müharibə istəmir - nə Rusiya, nə də bu regionda yaşayan digər ölkələr. Amma təxribat riski böyükdür".

**Politoloq:** "Almaniya və Fransa rəhbərləri də bu məsələdə konkret ABŞ-ın mövqeyini tənqid edirlər"

**Ukrayna prezidentinin açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə deyib ki, Zelenski mövcud gərginliyin süni şişirdilməsi ilə bağlı narahatlığını ifadə edən ilk siyasətçi deyil. Ekspert bildirib ki, Almaniya və Fransa rəhbərləri də bu məsələdə konkret ABŞ-ın mövqeyini tənqid edirlər:**

"Ağ Ev rəsmiləri daha çox bu iki dövlətlə danışıqlar aparır. Rusiyaya qarşı ən sərt addımların atılmasını, Moskvaya təzyiqlərin artırılmasını tələb edir. Ancaq Ağ Ev buna nail ola bilmir. Avropanın aparıcı ölkələri - Almaniya və Fransa bir sıra məqamları nəzərə alaraq Rusiya ilə qarşıdurma istəmirlər. Nəticədə Qərb dünyasında ABŞ və Avropadan ibarət iki tərəf meydana gəlməkdədir. Avropa ölkələrinin müharibənin başlamasını arzu etməməsi anlaşılandır. Rusiya qazını Avropaya çatdıracaq "Şimal Axını-2" enerji layihəsi hələ gündəmdədir və yekun qərar verilməyib. Qərb dövlətləri, daha doğrusu, NATO müharibəyə hazır olduğunu bəyan etsə də, Kreml Ukrayna ilə savaşa başlamaq niyyətində olmadığını açıqlayır: "Moskvaya qarşı sərt tədbirlərin praktiki əhəmiyyəti itir. Rusiya rəsmiləri deyirlər ki, "baxın, biz müharibə olmasını istəmirik, amma Qərb vəziyyəti gərginləşdirir, israrla savaşdan danışır".

**İ.Vəlizadə vurğulayıb ki, müharibə ehtimalı ilə bağlı yaradılan süni ajiotaj iqtisadi münasibətlərə böyük zərbə vurur:** "Avropada, Ukraynada qarışıqlıq, savaş proqnozları verilərkən hansı investor həmin ölkəyə sərmayə qoyar?! Heç bir iş adamı öz biznesini riskə atmaz. Nəinki xarici investorlar, ukraynalı sahibkarlar belə müharibə ehtimalına görə hansısa sektora yatırım etmirlər. Onsuz da Ukraynada, Şərqi Avropada pandemiyaya görə iqtisadiyyat ürəkaçan deyil. Müharibə mövcud iqtisadiyyatı bir qədər də çökdürər. O baxımdan həm Ukrayna, həm də Avropa məsələni dinc yolla həll etməyin tərəfdarıdır. ABŞ üçün savaş, yaxud sülh elə də əhəmiyyət kəsb etmir. Amerika Ukraynanın yerləşdiyi coğrafi məkandan çox uzaqdır. Hamı bilir ki, müharibənin əsas zərbəsi ilk növbədə Ukraynaya, daha sonra isə Rusiya və Avropa ölkələrinə dəyəcək. Müharibəyə hazırlıq gedir, amma görünən odur ki, ABŞ-dan başqa heç bir ölkə müharibənin başlamasını arzulamır".

İsmayıl Qocayev



# Rusiya və Amerika özlərini mehriban düşmənlər kimi aparır

**Samir Hümbətov:** "ABŞ Ukraynanı qurban kimi seçib. Rusiya da orada dominantlıq yaratmaq istəyir"

**ABŞ dövlət katibi Entoni Blinken və Rusiya Xarici işlər naziri Sergey Lavrov gələn həftə yenə eyni masa ətrafında köhnəlməyən mövzularda danışıqlar aparacaqlar. Bu barədə ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Viktoriya Nuland bildirib.**

"Biz rusların təhlükəsizlik məsələləri ilə bağlı danışıqlara maraqlı olduğunun bəzi əlamətlərini, o cümlədən dövlət katibi Blinkenin və Xarici işlər naziri Lavrovun yaxın həftə ərzində danışa biləcəyini görürük", -deyə o, bildirib.

Rusiyanın davamlı olaraq ABŞ tərəfindən sanksiyalara məruz qalması ölkələr arasında əlaqələri kritik həddə çatdırıb. İndi isə iki dövlətin danışıqlara getməsi ağıllarda fərqli fikirlər yaradır. Bəlkə də bundan sonra gərginliklər çoxalacaq. Başqa bir ehtimal da var ki, danışıqlar ölkələri yaxınlaşdıracaq. Çünki Ukrayna məsələsində iki ölkənin maraqları kəsişir.

**"Şərq"ə açıqlama verən siyasi şərhçi Samir Hümbətov ABŞ-la Rusiya arasındakı gərginliyin həm görünən, həm də görünməyən tərəflərindən bəhs edib:**

"Görünməyən cəhəti odur ki, tərəflər arasında oyun gedir. Görünən tərəf isə bu gərginliyi yaratmaqla, əslində ABŞ və Rusiya öz mənafelərini müəyyən nöqtələrdə, xüsusilə də strateji mövqeyi olan ərazilərdə qorumağa çalışırlar. Mənfi münasibətlər SSRİ dövründən başlayıb".

O, iki dövlət arasındakı münasibətin normallaşmasından daha çox gərginləşəcəyini hesab edir: "Rusiya ABŞ-dan özünə qarşı sanksiyalar gözləyir. ABŞ da görür ki, şimal qonşumuz artıq onun strateji mövqelərinə toxunur. Bu gün artıq rəsmi Moskva ortaya bir mövqe qoyub ki, Ukrayna və Gürcüstan NATO-ya girməyəcək. Bu , Ağ Evin xarici siyasət prinsiplərinə zidd addımdır".

**S.Hümbətov hər iki tərəfin Ukrayna məsələsindən bəhrələnmək niyyəti olduğunu bildirib:** "ABŞ Ukraynanı qurban kimi seçib. Rusiya da orada dominantlıq yaratmaq istəyir. Burada "Rus ayı"sı ilə ABŞ müttəfiq deyil, nə də tam düşmən deyil. Sadəcə, hər ikisinin rəsmi Kiyev üzərindən oyunları var. Blinken və Lavrov da oyunun əsas fiqurlarındandır. Bu günləri də həmin oyunu bu istiqamətdə aparırlar".

Cəmilə ƏZİM

# Hədəflər genişlənir

## Azərbaycan-Macarıstan arasında yeni görüşlər labüddür



Bura təhlükəsizlik və müdafiə siyasəti ilə bağlı məqamlar da daxildir...

İsmayıl Qocayev

**"Azərbaycanın Ermənistandan aldığı sonuncu mina xəritələri Macarıstanın təşəbbüsü ilə reallaşmışdı".**

**Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Macarıstan Avropa İttifaqının üzvüdür, bu mənada Budapeştin təşəbbüsü Avropa İttifaqının adı ilə bağlı akt kimi qiymətləndirilməlidir:**

"Amma mina xəritələrinin qaytarılmasında Macarıstanın rolu həm də Türk Dövlətləri Təşkilatının təşkilat olaraq sülhyaratma prosesinə cəlbi kimi dəyərləndirilməlidir.

Macarıstan TDT-yə müşahidəçi statusu ilə üzvdür, MDB məkanında cərəyan edən proseslər və perspektivə dair qeyri-müəyyən baxışlar təşkilatı daha sıx koordinasiya halında işləməyə vadar edir. TDT beynəlxalq sistemdə yeni dəyər formalaşdırmağa can atır və proses tədricən reallaşır. Bu dəyər güclə hüququn harmoniyasına əsaslanan konsepsiyalar üzərində inşa edilir və ölkələrin müdafiə qabiliyyətinin gücləndirilməsinə xidmət edir. Macarıstanın TDT-də təmsil olunması Avropaya açılan panoramada quruma üstün dividend gətirir. Təşkilatın Avropada iştirakı qaçılmaz hala gəlir. Qurumun aparıcı gücü olan Azərbaycan və Türkiyə ilə yaxşı əlaqələrə malik olan Macarıstan Cənubi Qafqazda yaranan yeni reallığı iqtisadi faydalılıq müstəvisinə çəkmək üçün çalışır".

*Analitikin fikrincə, Azərbaycanla Macarıstan arasındakı münasibətlərin xarakterini iki ölkə arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamədə görmək olar:*

"Ancaq bu Bəyannamənin yenilənməsinə ehtiyac duyulur. Çünki sənəd 2014-cü ildə imzalanıb və bəzi bəndləri mövcud reallıqlara cavab vermir.

Məsələn, sənəddə o zaman mövcud olan Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinə vurğu edilirdisə, artıq yeni reallıq tələb edir ki, Macarıstanın dəstəyi sırf yeni təzislər üzərində qurulsun. İndi tərəflər həm ikitərəfli formatda, həm də beynəlxalq arenadakı səyləri yeni reallıq kontekstində gücləndirməlidirlər. Bura təhlükəsizlik və müdafiə siyasəti ilə bağlı məqamlar da daxildir. Macarıstan şirkətləri Qarabağa və Şərqi Zəngəzura yatırım etmək niyyətindədir, cari situasiyada isə bu yatırımlar daha aktuallıq kəsb edir. Buna görə də Azərbaycan-Macarıstan diplomatik, ticari təmasları davam etdirilir, amma yeni görüşlər də labüddür. Düşünmək olar ki, yaxın zamanlarda ya Azərbaycan nümayəndə heyəti Macarıstana yollanacaq, ya da Macarıstandan nümayəndə heyəti Bakıya təşrif buyuracaq. Əgər səfər baş tutacaqsa, yeni sənədlərin imzalanması mümkündür".

# Böhran daha pik həddə çatacaq

## Paşinyanın məqsədi özünə sadiq şəxsi prezident seçdirməkdir

**Ermənistanda hakim Vətəndaş Müqaviləsi Partiyası öz qərarında dəyişiklik edib. Ölkə prezidentliyinə yüksək texnologiya sənayesi naziri Vaahn Xaçaturyanın namizədliyi irəli sürülüb.**

Bir müddət əvvəl dövlət başçısı postuna baş nazirliyin administrasiyasının rəhbəri Araik Arutyunyanın namizədliyi təklif olunmuşdu. Ancaq onun namizədliyi Ermənistan cəmiyyətində ciddi narazılıq doğurmuşdu. Xatırladaq ki, yanvarın 23-də Armen Sarkisyan prezidentlikdən istefa verdiyini bəyan edib. Sabiq prezident daxili və xarici siyasətə təsir etmək üçün lazımi səlahiyyətlərə malik olmamasını əsas gətirib.

**Ermənistanda yaşanan siyasi böhranı "Şərq"ə təhlil edən siyasi şərhçi Tural İsmayılov deyib ki, Armen Sarkisyanın istefası əvvəlcədən gözlənilirdi. Analitikin sözlərinə görə, Ermənistanda hakimiyyət daxilində ciddi daxili xaos hökm sürürdü:** "Son aylar ərzində müdafiə nazirləri tez-tez dəyişirdi. Eyni zamanda hakim partiyaya məxsus məmurların istefası müşahidə olunurdu. Belə məqamda səlahiyyətləri Paşinyan tərəfindən məhdudlaşdırılan və müxtəlif linç kampaniyalarına məruz qalan Armen Sarkisyanın prezidentlik postunda çox qalacağı gözlənilmirdi. İstefadan sonra Ermənistanda onsuz da kövrək olan ictimai-siyasi mühit daha da gərginləşməyə başladı. Paşinyan özünə yaxın şəxsin namizədliyini irəli sürür. Müxalifətdəki əsas söz sahibi olan R.Koçaryan və onun "Hayastan" bloku prezidentlik postu uğrunda ciddi mübarizə aparacaqlar".

"Uzunmüddətli hədəfi isə referendumla konstitusiyanı dəyişərək Ermənistanı parlamentli respublikadan prezidentli respublikaya çevirməkdir"



**T.İsmayılova görə, prezidentin istefasından sonra Ermənistanda dərinləşən siyasi böhran daha pik həddə çatacaq:** "Paşinyanın məqsədi özünə sadiq şəxsi prezident seçdirməkdir. İstəyir ki, qərarları şübhə altına alınmasın. Uzunmüddətli hədəfi isə referendumla konstitusiyanı dəyişərək Ermənistanı parlamentli respublikadan prezidentli respublikaya çevirməkdir. Paşinyan daha çox səlahiyyətə malik prezident olmaq arzusundadır. Ona görə də Sarkisyanı tənqid atəşinə məruz qoyaraq istefaya məcbur etdi. Ölkədə xaotik vəziyyət hələ davam edəcək. Vətəndaş qarşıdurması, hakimiyyət daxilindəki problemlər, müxalifətlə çəkişmələr gərgin mərhələyə qədəm qoyacaq. Bütün bunlar isə Ermənistanda referendumun keçirilməsi ilə nəticələnəcək".

İsmayıl Qocayev

# Moskva mövqeyindən çəkinəcək

## Qərbin Rusiyanın qaz sektoruna qarşı sanksiyaları ağır nəticələr verə bilər




**Avropa İttifaqı (Aİ) və Böyük Britaniya hökumətləri Rusiyanın qaz sektoru ilə bağlı layihələrinə qarşı sanksiyalar paketi hazırlayır. ABŞ-ın dəstəyi ilə hazırlanan sanksiyalar çərçivəsində Rusiyaya qarşı qaz sektorundakı layihələrdə maliyyələşmə və texnologiya paylaşımı sahəsində məhdudiyyətlər nəzərdə tutulur.**

Sözügedən sanksiyaların Ukrayna ətrafında gərginlik yaranacağı halda tətbiq olunacağı nəzərdə tutulur.

**ADP sədrinin müavini, politoloq Həsrət Rüstəmov tərəflərin Rusiyaya qarşı tətbiq edəcəyi sanksiyalardan "Şərq"ə danışarkən bildirib ki, bu məsələdə Aİ ilə İngiltərənin mövqeyi tam olaraq üst-üstə düşmür:**

"Burada əsas təzyiq qüvvəsi kimi ABŞ və İngiltərə çıxış edir. Rusiyadan ixrac olunan qazın əsas hissəsini Almaniya, o cümlədən Aİ-nin digər ölkələri alır. Onlar da hazırda Rusiyaya sanksiya tətbiq etməkdə, konkret olaraq "Nord Stream - 2" ("Şimal Axını - 2") qaz kəmərini bağlamaq məsələsində çox həvəsli görünmürlər".

**Politoloq hesab edir ki, Rusiya Ukraynaya hücum planını yavaş-yavaş reallaşdırır:** "Kreml ardıcıl olaraq müharibənin başlaması üçün lazım olan bütün addımları atır. Bu davam edərsə, şübhəsiz ki, Avropa məcburiyyət qarşısında qalıb İngiltərə və ABŞ-ın mövqeyi ilə razılaşacaq. Belə olduqda Rusiyaya qarşı sanksiyaları da sərtləşdirəcək".

**H.Rüstəmlinin qənaətincə, bu sanksiya planının dünya bazarında neft və qazın qiymətlərinin qalxdığı vaxtda qurulması təsadüfi deyil:** "Çünki Rusiya neft və qazdan asılı iqtisadiyyatı olan ölkələrdən biridir. Əgər hazırda bu istiqamətdə sanksiyalar tətbiq olunarsa, bu, rəsmi Moskvaya ciddi təsir göstərər və onu bir çox mövqelərindən çəkindirə bilər".

Günəş Mərd

# Artıq sərhəddəyik, hər an toqquşmalar gözlənilir

## Komandoların təlimlərinin məqsədində daha uzaq hədəflər dayanır



**Azərbaycan Ordusu üçün həyata keçirilən islahatlar çərçivəsində yeni yaradılan Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrində xidməti döyüş fəaliyyətinin təşkilinə xüsusi diqqət yetirilir. Komando hərbi hissələrində bütün obyektlər müasir tələblərə uyğun inşa edilib, lazımi avadanlıq və inventarlarla təchiz olunub.**

Burada xidməti döyüş fəaliyyətlərinin keyfiyyətli təşkili və asudə vaxtın səmərəli keçirilməsi üçün müvafiq şərait yaradılıb. Yaradılan şərait döyüş hazırlığı planına əsasən komandolarla yüksək səviyyədə intensiv təlim-məşqlərin keçirilməsinə imkan verir. Vətən müharibəsində əldə edilmiş təcrübələr nəzərə alınmaqla, türkiyəli peşəkar zabitlərin iştirakı ilə komandoların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və praktiki vərdişlərinin təkmilləşdirilməsi təmin edilir. Real döyüş şəraitinə maksimum uyğunlaşdırılmış şərtlərlə keçirilən məşğələlərdə komandolar kəskin relyefli ərazilərdə hərbi helikopterlər və digər üsullarla yerdəyişmələr icra edirlər. Təlimlər zamanı komandolar birbaşa təmas vəziyyətində manevələr zolağından keçid, dağlıq ərazilərdə döyüş aparma, müdafiənin dərinliyinə sızma, eləcə də şərti düşmənin müvəqqəti yerləşdiyi sığınacaqlarda və yaşayış məntəqələrində müqavimət göstərən təxribat-diversiya qrupunu mühasirəyə alma, zərərsizləşdirmə tapşırıqlarını müvəffəqiyyətlə icra edirlər.

**Komanda hərbi hissələrinin təlim fəaliyyəti ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Aqşin Kərimov bildirib ki, bu birliklər peşəkar, döyüşən, təlimdən boş vaxt tapmayan hərbçilərin toplandığı məkandır:**

"Komando hərbi birlikləri döyüşlərdə xüsusi təyinatlı missiyanı yerinə yetirirlər. Eləcə də hədəfin arxasına sızma əməliyyatlarını icra edirlər. Bu halda itki riski minimuma enir, təhdidə qarşı cəld, çevik, operativ reaksiya verilir. Lazım olan hədəflərə isə tez bir zamanda çatılır.

Komandolar əsasən dağ döyüşləri üçün təlimlər keçirlər. Azərbaycan münaqişə bitdikdən sonra sərhədə çıxış əldə edib. Həmin zonalar mürəkkəb dağ relyeflidir".

**Analitik sərhədlərin delimitasiya və demarkasiya məsələsinin ağrılı proses olduğunu vurğulayıb:**

"Hər hansı toqquşma ehtimalı mövcuddur. Belə olduğu təqdirdə, komandolar hərbi immuniteti gücləndirən birliklərə çevrilir.

Komandolar anti-terror əməliyyatlarında hərbi işi asanlaşdıran faktordur. Komandoların təlimlərinin məqsədində daha uzaq hədəflər dayanır.

Prezident İlham Əliyev bildirib ki, Ermənistan sülh təkliflərinə cavab verməsə, Bakı güc amilinə müraciət edəcək. Bu gücü isə nümayiş etdirmək lazımdır, komandolar yeni gücdür - Türkiyə modelli gücün yeni elementi".

**Aygün Tahir**

# BNA-dan razı qalan günümüz olacaq?

## Sərnişinlərin şikayətləri bitmək bilmir

**Şənbə-bazar günləri ictimai nəqliyyatın işindən narazılıq edilir. Həftə içi 10 dəqiqə intervalla işləyən avtobuslar şənbə-bazar günləri daha uzun zamanlı, hətta 40 dəqiqə intervalla işləyir.**



Halbuki, işləyənlərin bir qismi üçün şənbə və bazar istirahət günləridirsə, bir qisim üçün adi iş günüdür. Avtobuslararası intervalın uzanması isə işə gedib-gələnlərə çətinlik yaradır. Xüsusən də nəzərə alsaq ki, "Covid"in yeni "Omicron" ştammının yoluxuculuq qabiliyyəti daha yüksəkdir, basabas avtobuslarda yoluxma riski də artır. İctimai nəqliyyatın işindən narazılıq haqda bazar günü sosial şəbəkədə də müzakirə açılıb. "525-ci qəzet"in baş redaktor müavini, publisist Yusif Rzayev 32 saylı avtobusu 40 dəqiqə gözlədiyini yazıb. Həmçinin sürücülərin davranışından da şikayətlənib:

### Şənbə və bazar günləri avtobuslar 40 dəqiqə intervalla işləyir

"BNA-nın sürücüləri özlərini çox tərbiyəsiz aparır A kişi, 40 dəqidə interval olar? Camaat 40 dəqiqəyə kosmosa gedib gəlir siz bir xətti idarə edə bilmirsiniz?".

Sosial şəbəkədəki "sərnişinlər"in də, dərdləri təzələnib. İctimai nəqliyyatdan narazılıq bildiriblər, üstəlik, sürücülərin kobud davranışından da gileyləniblər.

**Məhərrəm Nəcəfzadə:** Eynən 6 nömrəli marşrut avtobusu kimi.

**Almaz Ülvi Binnətova:** 6 saylı avtobus 30-40 dəqiqəlik intervalla gəlir və basabasda dünya aləm dəyir biri-birinə.

**Adil Osmanov:** BNA-nın devizi belədir: "Dəyirman öz bildiyini edir. Çax-çax baş ağrıdır"

**Zərifə Beşirqızı:** Siz 52 nömrəli avtobusdan danışın. Xəttə iki maşın çıxır. İnterval 40 dəqiqə - tez gələndə. Beşmərtəbə - 4-cü mikrorayon.

**Zaur Ustac:** Var olun. Allah sizi qorusun. Hamısı doğrudur. Hələ Siz yalnız bir kiçik problemdən yazmısınız... Müntəzəm istifadəçilər hər gün həyatlarını sadəcə təhlükəyə atırlar...

**Nusrət Quliyev:** Hələ sərnişinləri aldatdıqlarını demirəm. Bir dayanacaq gedən də 30 qəpik ödəyir, 10 (on) dayanacaq gedən də. Bu sərnişinləri soymaqdır

**Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinə müraciət etdik. Agentliyin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mais Ağayev "Şərq"ə açıqlamasında qeyd etdi ki, müntəzəm marşrut xətləri üzrə avtobusların hərəkət intervalı və gündəlik xəttə çıxan avtobus sayı sərnişin tələbatına uyğun olaraq tənzimlənir:**

- Həftənin iş günləri ilə müqayisədə şənbə və bazar günləri sərnişin səfər sayı nisbətən aşağı olduğundan intervallar da bir qədər uzanır. Amma təbii, bu, suiistifadə hallarına yol açmamalıdır. Sərnişindaşıma şirkətlərinə bununla bağlı tapşırıqlar verilib.

*M.Ağayev sərnişinlərin konkret hansı xətt üzrə hərəkət edən avtobuslardan narazı olmalarını qeyd etməyimizi istədi və problemin araşdırılacağını bildirdi.*

**Məlahət Rzayeva**

# Revanşistlərə daha sərt xəbərdarlıq edildi

## Ruslar Qarabağdakı erməniləri zorla saxlaya bilməyəcəklər



"Könüllü surətdə Azərbaycan vətəndaşlığını qəbul edən ermənilər istisna olmaqla bütün separatçılar, silahlı quldurlar torpaqlarımızı birdəfəlik tərk edəcəklər"

İsmayıl Qocayev

**Prezident İlham Əliyev Gəncə şəhərində səfərdə olarkən növbəti dəfə Ermənistan rəhbərliyinə xəbərdarlıq edib. Dövlət başçısı bildirib ki, biz sadəcə öz torpağımızı azad etmədik, həm də regionu vəhşi xislətli qüvvələrdən təmizlədik:**

"İndi onlar boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir".

**Prezidentin məhz indiki məqamda Ermənistanda xəbərdarlıq mesajını "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, dövlət başçısı zaman-zaman Ermənistandakı revanşistlərə xəbərdarlıq edir. Professorun qənaətincə, Gəncədəki bəyanat əvvəlkilərdən daha sərt idi:** "Prezident konkret İrəvana xəbərdarlıq etdi ki, neofaşizmin baş qaldırmasına imkan verilməyəcək. Erməni faşizminin hədəfi sadəcə biz deyilik. Ermənilər Gürcüstana, Türkiyəyə, Rusiyaya da ərazi iddiaları ilə çıxış edirlər. Rusiyanın Krasnodar vilayətinə "yiyə" çıxırlar. Əfsuslar olsun ki, bugündək ancaq ayrı-ayrı siyasətçilər səviyyəsində Ermənistanın sərsəm iddialarına cavab verilib. Görünür, Rusiyanın müəyyən kəsimlərində Ermənistandakı revanşist gücləri dəstəkləyən qüvvələr var. Ermənistanda Armen Sarkisyanın istefasından sonra revanşist qüvvələr daha çox iddialar ortaya qoyurlar. Yenidən Qarabağa "status" məsələsindən danışırlar. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin tanınması ilə bağlı absurd mövqelər sərgiləyirlər. İrəvan hökuməti sülh müqaviləsinin imzalanmasına dair konkret tarix verməməklə bərabər prosesə başlamaq həvəsi də göstərmir. Ermənistanda revanşizmi gücləndirmək istəyən xarici ölkələr də fəaliyyətə başlayıblar. Rəsmi Bakı prosesləri dərindən izləyir və vaxtı çatanda addım atır".

**C.Nuriyev bəyan edib ki, Azərbaycanda ən məlumatlı şəxs dövlət başçısıdır:** "Əgər ölkə rəhbəri Ermənistana məhz indiki məqamda sərt mesaj verirsə, deməli, hansısa proses gedir. Cənab Prezident mesaj verir ki, siyasət populizm yox, reallığı sevir. Ermənistan da Cənubi Qafqazdakı yeni düzənlə razılaşmaq məcburiyyətindədir. Əks təqdirdə cavabları daha sərt formada veriləcək. Əminəm ki, gec-tez Ermənistanı Azərbaycanın ərazi bütövlüyünü tanımağa və sülh müqaviləsinə imza atmağa məcbur edəcəyik. Ruslar Qarabağdakı erməniləri zorla saxlaya bilməyəcəklər. Könüllü surətdə Azərbaycan vətəndaşlığını qəbul edən ermənilər istisna olmaqla bütün separatçılar, silahlı quldurlar torpaqlarımızı birdəfəlik tərk edəcəklər".

# "Addım-addım problemi çözəcəyik"

## Fazil Mustafa: "Türkiyə ordusunun ərazimizdə mövcudluğunu tam legitimləşdiriləcək"



**"Qarabağ Azərbaycan dövlətini sevən hər kəs üçün ən həssas mövzudur. Hamımız fikir, mülahizə, gələcəyin proqnozlaşdırılmasını Qarabağ üzərindən irəli sürmək haqqına sahibik. Ancaq bunu hoqqabazlıqla, yalançı vətənpərvərliklə edənlərə qarşı da mövqe sərgiləməyimiz vacibdir".**

Bu sözləri millət vəkili Fazil Mustafa deyib. Deputat bildirib ki, Qarabağ üzərindən hamıdan artıq vətənpərvər görünmənin fəsadlarını illər öncə yaşamışıq. Yenidən yaşamamaq üçün mövcud reallıqlara uyğun millət və dövlət olaraq daha nizamlı addım atmağa çalışmalıyıq: "Sui-istifadə mövzularından biri Rusiya sülhməramlıları ilə bağlı məsələdir. Bəri başdan deyim ki, Qarabağda Rusiya sülhməramlılarının olmasına ən ciddi təhlükə kimi baxanlardan biri olsam da, mövcud şəraitdə bunun alternativinin olması barədə hansısa konkret təklifə malik deyiləm. Ancaq Qarabağ savaşından sonra imzalanan 10 noyabr 2021-ci il bəyanatının bütün müddəalarını da dövrün reallığına uyğun hesab edirəm. Ölkə prezidentinin Rusiya ilə bu mövzuda apardığı danışıqların prinsiplərini dəstəkləyirəm. Çünki özünüz də görürsünüz ki, dünyanın aparıcı gücləri hər hansı məsələdə Rusiyanın iradəsini sındıracaq addımlar ata bilmirlər. Biz kiçik dövlət olaraq öz maraqlarımızı maksimum səviyyədə Rusiya qarşısında qorumağı bacarırıqsa, bu kursa davam etməkdən başqa yolumuz qalmır. Sözümü NATO məsələsinə gətirirəm. NATO adından Rusiyaya ultimatum verildi ki, üç ölkədən - Ukrayna, Moldova və Gürcüstandan qoşunlarını çıxarsın. Bizdə dərhal sosial şəbəkə qəhrəmanları yenə də Qarabağ üzərindən siyasətə başlayaraq vurğuladılar ki, bəs NATO ona görə üç ölkəni deyir ki, onların ərazisinə rus qoşunları zorla girib. Bizim adımızı da ona görə çəkməyib ki, hakimiyyət rus sülhməramlılarını özü dəvət edib. Yenə də ənənəvi Allahsızlıq! Rusu hələ bir yana buraxaq, ermənidən başlayaq. BMT qətnamə qəbul etmişdi ki, erməni birləşmələri Kəlbəcərdən çıxsın. Əcaba o zaman və sonra NATO xırdaca Ermənistana ultimatum verdimi ki, işğal olunmuş Azərbaycan torpağından çıxın? "Dağlıq Qarabağ"dan isə ümumiyyətlə danışan olmadı. Çünki oradakı erməni ordusunu tamamilə görməzdən gəlirdilər. İllər boyunca NATO da daxil olmaqla bütün Avropada mövcud olan beynəlxalq təşkilatların Ermənistan işğalçı ordu birləşmələrinin Azərbaycandan çıxarılması barədə ultimatuma, adicə bir tələbə rast gəldinizmi? Bapbalaca Ermənistandan bunu tələb etməyənlər, bizim ərazimizdə olan Rusiya sülhməramlıları barədə tələb qoyacaqlar?".

"Ermənilərlə sülh sazişi, Zəngəzur yolunun açılışı ard-arda görəcəyimiz işlərdir"

**Parlament üzvü bəyan edib ki, Qarabağ, Rusiya sülhməramlıları mövzusu çox həssaslıq tələb edir:** "Addım-addım bu problemi çözəcəyik. Türkiyə-Ermənistan münasibətləri qurulmağa başlayır. Yaxınlarda Şuşa Bəyannaməsini parlament təsdiq edəcək. Türkiyə ordusunun ərazimizdə mövcudluğunu tam legitimləşdiriləcək. Ermənilərlə sülh sazişi, Zəngəzur yolunun açılışı ardarda görəcəyimiz işlərdir. Bu kimi məsələlərə hamılıqla geniş çərçivədən baxmalıyıq. Siyasət üçün daha fərqli mövzular var. İstər xarici, istər daxili siyasətdə. Populizm naminə Qarabağdan istifadə etməməyə çalışmaq daha məqsədəuyğun olardı".

**İsmayıl**

# Omikronun sürətlə yayılması artıq göz qabağındadır

## Epidemioloji vəziyyət pisləşərsə, müəyyən qapanmalar ola bilər

**"Dünya ölkələri Omikron ştamı ilə bağlı sərt tədbirlər görməsə də müəyyən məhdudiyyətlər qoyuldu. Hesab edirəm ki, ölkədə ciddi qapanmalar olmasa da, fevralın 15-dən epidemioloji vəziyyətə uyğun olaraq addımlar atıla bilər".**

Bu sözləri Baku.ws-ə açıqlaması zamanı tibb elmləri doktoru, professor Adil Qeybulla danışıb.

Ekspert əlavə edib ki, Omikron ştamına əhalinin böyük hissəsinə yoluxur: "Bu gün biz dalğanın içində yaşayırıq. Omikron ştamı çox yolxucudur. Yoluxmadan bir neçə saat sonra klinik əlamətləri özünü göstərir. Əvvəlki ştamlar isə bir neçə gün ərzində özünü göstərirdi.

Bu ştamın sürətlə yayılması artıq göz qabağındadır. Yoluxanların sayının rekord həddə çatmasını görürüksə, nə qədər qeydiyyata düşməyən xəstələr də var. Ona görə, real rəqəmlər əslində çoxdur.

İnsanlar karantin davranışlarına qapalı mühitdə ciddi əməl etməlidir. Epidemioloji vəziyyət pisləşərsə, müəyyən qapanmalar ola bilər. Kütləvi tədbirlərə, toylara və yaslara müəyyən məhdudiyyətlər qoyula bilər. Çünki insanlar bir neçə saat həmin məclislərdə iştirak edirlər. Lakin çox sərt tədbirlərin görülməsinə lüzum görmürəm".



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"




# Məhdudiyyət ləğv olundu

## Vətəndaşlar Şuşa və Ağdama istənilən qədər səfər edə biləcəklər

**Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə geniş abadlıq-quruculuq işlərinə start verilib. Müharibədən dərhal sonra çox qısa vaxtda Azərbaycan ermənilər tərəfindən vandallığa məruz qalmış ərazilərimizi minalardan təmizləməyə, infrastruktur layihələri həyata keçirməyə başlayıb. Azad olunmuş Füzuli rayonu ərazisində cəmi 8 ay ərzində beynəlxalq hava limanı test uçuşlarına başlayıb.**

Zəngilan və Laçın rayonları ərazisində daha 2 beynəlxalq hava limanı inşa edilir. Şübhəsiz, Qarabağa "Böyük Qayıdış" prosesinin ən vacib məqamlarından biri işğaldan azad olunmuş ərazilərə gediş-gəlişin, mütəmadi səfərlərin başlamasıdır. Postmüharibə dövrünün ilk vaxtlarında Qarabağa yerli və xarici jurnalistlərin, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, tanınmış ziyalıların səfərləri baş tuturdu. Artıq sadə insanlar da Şuşaya, Ağdama səfər edə bilirlər. Qarabağa baş tutan səfərlər, aparılan sürətli işlər, sadə vətəndaşların həsrətlə, böyük sevinclə, həvəslə həmin ərazilərə səyahəti "Böyük Qayıdış"dan xəbər verir.

İşğaldan azad edilmiş Şuşa və Ağdama Qarabağa "Böyük Qayıdış" çərçivəsində müntəzəm avtobus reyslərinin təşkili mühüm əhəmiyyət kəsb edir. Bu, "Böyük Qayıdış"ın ilkin mərhələsi hesab edilir və həmin ərazilərin reinteqrasiyasında ciddi rola malikdir. Nəticə etibarilə, vətəndaşlar 30 illik həsrətdən sonra doğma el-obalarına səfər etmək imkanı əldə ediblər. Bu, bir daha sübut edir ki, vətəndaş məmnunluğu və təhlükəsizliyinin təminatı dövlətin prioritetlərindəndir. Azərbaycan "Böyük Qayıdış"ın astanasındadır. Bu günlərdə işğaldan azad edilmiş ərazilərə sərnişindaşıma həyata keçirən avtobus marşrutlarının hərəkət qrafikində dəyişiklik edilib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib ki, yanvarın 24-də Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti və mədəni-mənəvi dəyəri yüksək olan Şuşa və Ağdam şəhərlərinə ilk müntəzəm avtobus marşrutları istifadəyə verilib. Bu günə qədər Şuşa və Ağdam istiqamətində 12 reys uğurla həyata keçirilib. Vətəndaşlar müvafiq istiqamətlər üzrə ümumilikdə 1100-dən çox bilet alıblar. Marşrutların təhlili, həmçinin tələbat və bilet satışı dinamikası, eləcə də vətəndaşların istəkləri nəzərə alınaraq, avtobusların hərəkət cədvəllərində müəyyən dəyişikliklər edilib. Belə ki, təhlillər nəticəsində Bakı-Şuşa-Bakı marşrutuna tələbatın daha çox olduğu müəyyən edilib və bu istiqamətdə əlavə reysin açılması qərara alınıb. Fevralın 16-dan etibarən Bakı-Şuşa-Bakı istiqamətində artıq həftədə 2 dəfə deyil, 3 dəfə avtobus reysi həyata keçiriləcək. Nazirlikdən həmçinin bildirilib ki, önəmli dəyişikliklərdən biri də odur ki, vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq ilkin mərhələdə tətbiq edilmiş bir dəfə səfər etmək məhdudiyyəti aradan qaldırılıb. Artıq vətəndaşlar hər hansı bir məhdudiyyət olmadan istənilən istiqamət üzrə səfərlər edə bilərlər.

**Qarabağa avtobus marşrutlarının təşkil olunması ilə bağlı "Şərq"ə danışan millət vəkili Cavid Osmanov deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi və düşünülmüş siyasəti nəticəsində müharibə bitəndən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanılıb. Deputat vurğulayıb ki, dövlət siyasətinin əsas istiqamətlərindən biri həmin ərazilərin yenidən qurulması və bərpasıdır:** "Müharibə bitdikdən dərhal sonra ilk növbədə təhlükəsizlik məsələlərinin həll edilməsinə başlanıldı. Bildiyiniz kimi, işğal dövründə ermənilər tərəfindən ərazilərimizdə minlərlə mina basdırılıb. Həmin ərazilərin bir hissəsində minalar təmizləndikdən sonra orada infrastruktur layihələrinin həyata keçirilməsinə şərait yaradıldı. Azad edilən ərazilərdə indiyə qədər aparılan yenidənqurma və bərpa işlərinin miqyasına baxdıqda görərik ki, müharibələrdən çıxmış ölkələrin heç birinin tarixində belə qısa müddət ərzində bu qədər böyük işlər görülməyib. Azərbaycan bütün bu işləri öz hesabına həyata keçirir. Bu, bir daha Azərbaycanın gücünün və qüdrətinin göstəricisidir və düzgün qurulmuş strategiyanın, yürüdülmüş siyasətin məntiqi nəticəsidir".

> "Bu cür səfərlər Qarabağa "Böyük Qayıdış"ın mühüm tərkib hissəsi və başlanğıcıdır"

**Parlament üzvü qeyd edib ki, 30 illik həsrətə son qoyulduqdan sonra təbii olaraq hər bir Azərbaycan vətəndaşı işğaldan azad olunmuş ərazilərimizə səfər etmək arzusundadır:** "Hələlik səfərlər Şuşa və Ağdamadır, amma yaxın dövrdə işğaldan azad edilmiş digər rayonlarımıza da mütəmadi avtobus reysləri açılacaq. Səfərlərin həftədə 2 dəfədən 3 dəfəyə qaldırılması və "ildə bir dəfə" məhdudiyyətinin aradan qaldırılması çox müsbət qərardır. Bu cür səfərlər Qarabağa "Böyük Qayıdış"ın mühüm tərkib hissəsi və başlanğıcıdır. Respublikanın başqa bölgələrindən olan vətəndaşlarımızın Şuşa və Ağdama səfərlərinin təşkil edilməsi təqdirəlayiqdir. Müraciətlərin çoxluğu onunla bağlıdır ki, insanlar 30 il həsrətində olduqları torpaqlara sadəcə bir dəfə getməklə kifayətlənmirlər. Bu baxımdan səfərlərin həftədə üç dəfə olması və "ildə bir dəfə" limitinin aradan qaldırılması müsbət qərardır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Cəmiyyətimiz gənclərə hər zaman inanır

## Şahin Həsənli: Biz Azərbaycan gəncliyinin döyüş meydanında böyük şücaət göstərməsinin şahidi olduq



**Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda, mənəvi dəyərlərimizə bağlı ruhda tərbiyə olunmalıdır. Cəmiyyətimiz gənclərə hər zaman inanır.**

Bunu azərtac-a açıqlamasında 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı keçirilən bayram tədbirində "Mənəvi Dünya" Milli-Mənəvi Dəyərlərimizin Təbliği İctimai Birliyinin sədri hacı Şahin Həsənli deyib.

O qeyd edib ki, Azərbaycanda uğurlu dövlət-gənclər siyasəti həyata keçirilir. Fevralın 2-nin Gənclər Günü elan olunması da ölkəmizdə gənclərə göstərilən diqqət və qayğının göstəricisidir. Gənclik hər bir xalqın gələcəyidir.

"Azərbaycan gəncliyi tarixin sınağından üzüağ çıxıb, xüsusilə Vətən müharibəsində. Biz Azərbaycan gəncliyinin döyüş meydanında böyük şücaət göstərməsinin şahidi olduq. Azərbaycan gəncliyi öz vətənpərvərliyinin mənəvi, milli dəyərlərimizə bağlı olduğunu sübut etdi.

Prezident İlham Əliyev Şuşada çıxışı zamanı bir məqama xüsusi diqqət yetirdi. Qeyd etdi ki, biz milli və dini dəyərlərimizə bağlı olmasaydıq, qələbə əldə edə bilməzdik. Həqiqətən də bu qalibiyyətdə ordumuzun hərbi hazırlığı, peşəkarlığı ilə yanaşı, gənclərimizin milli dəyərlərimizə bağlı olmaları da həlledici rol oynadı", - deyə o əlavə edib.

# Bölgəyə çoxlu etnik və ərazi "minaları" basdırılıb

## Natiq Cəfərli: "Yaxın gələcəkdə dünyanın ən "qaynar" nöqtələrindən biri məhz Orta Asiya olacaq"



**"Orta Asiya qaynayır, yaxın gələcəkdə dünyanın ən "qaynar" nöqtələrindən biri məhz Orta Asiya olacaq". Bunu ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya təmsilçisi qeyd edib ki, rus imperiyası və onun təbii, hətta ideoloji uzantısı olan SSRİ həmin bölgədə çoxlu etnik və ərazi "minaları" basdırıb:**

"Rusiya istənilən an bir-bir o "minaları" partlada bilər. Xəritəyə diqqətlə baxsaq görərik ki, Orta Asiya respublikaları ərazisində 8 anklav var. Tacikistana məxsus Karakçay anklavı Qırğızıstanda, Sarvak anklavı isə Özbəkistandadır. Qırğızıstanın Özbəkistan ərazisində Barak, Özbəkistanın isə Qırğızıstan ərazisində Canqayıl, Çon-Qara və Şahmərdan anklavları var. Belə qarışıq anklavlar sistemini yaradıb "minalar" basdırmaq ancaq şeytani düşüncənin ağlına gələ bilərdi. Basdırılmış "minalar" istənilən an partladıla bilir. Rusiya istənilən an orada vəziyyəti qarışdıra, özü də ağ at belində "xilaskar" kimi görsənə bilir. Qırğızıstan xalqı və hakimiyyəti son Qazaxıstan hadisələrindən çox narazı qaldı. Hətta KTMT-nin onlayn toplantısına Qırğızıstan prezidenti qatılmadı. Bəyan etdi ki, KTMT-yə qatılmayacaq. Belə bir niyyəti yoxdur. Bu da Putinin xoşuna gəlmədi".

**N.Cəfərliyə görə, İstanbulda Türk Dövlətləri Təşkilatının təsis edilməsi, Orta Asiya Türk respublikalarının orada aktiv iştirakı Kremldə ciddi qıcıq doğurub:** "Rusiya bölgənin tək sahibi olduğunu hər fürsətdə göstərməyə çalışır və çalışacaq. Daha bir maraqlı detal Çin faktorudur. Çinin bölgəyə təsiri sürətlə artır, ekspansiyası güclənir. Rusiya indi elə bir ağır durumdadır ki, Qərbə qarşı Çinə möhtacdır. Ona görə də açıq şəkildə Çinin o bölgənin "yumşaq istilasına" səsini çıxara bilmir. Birbaşa Çinə nəsə deyə, irad bildirə bilməyən Rusiya toqquşmalarla mesaj verir".

**İsmayıl**



# Müharibə olmayacaq

## NATO-Rusiya gərginliyi zəifləyir

**"Təhlükəsizlik üzrə danışıqlarda irəliləyiş əldə etmək üçün ABŞ, NATO ölkələri və Rusiya aqressiv ritorikanı azaltmalıdırlar, o cümlədən KİV-də də". Bu fikri "RİA Novosti"yə ATƏT-in keçmiş baş katibi, hazırda Cenevrə Təhlükəsizlik Siyasəti Mərkəzinin direktoru Tomas Qreminger səsləndirib.**

"Hər iki ölkədə də KİV-də bir-birini düşmən kimi qələmə vermək üçün kampaniya apardığının şahidi oluruq. Və bütün bunlar silah cingiltisi kimi, heç də hazırda Avropada təhlükəsizlik məsələlərinə dair danışıqlar üçün bizə lazım olan mühitin yaradılmasına imkan vermir", - deyə o vurğulayıb.

Keçmiş baş katib qeyd edib ki, hazırkı şəraitdə təmkin nümayiş etdirmək vacibdir.

"Düşünürəm ki, indi bizə lazım olan həm hərbi, həm də siyasi siqnallarda qarşılıqlı təmkinli olmaq, eləcə də bu hərbi ritorikanı azaltmaq və qarşı tərəfi düşmən kimi göstərməməkdir. Hesab edirəm ki, dialoq üçün əlverişli mühit yaratmaq naminə bu cür ritorikanın səviyyəsini tez bir zamanda aşağı salmaq lazımdır", - deyə o bildirib.

**ATƏT-in keçmiş baş katibinin səsləndirdiyi fikirləri "Şərq"ə şərh edən təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl bildirib ki, Qərb gərginliyi azaltmağa çalışır**: "Putinin hakimiyyəti dövründə Avropa dəfələrlə narahatlıq keçirib. İndi Krım münaqişəsi ilə bağlı olaraq bu, pik nöqtəyə qalxıb. Burada əsas hədəf Ukrayna deyil, NATO, ABŞ və Rusiya arasında olan kəskin münasibətlərdir. Rusiya NATO prinsiplərinə uyğun olmayan şəkildə ultimatum məktubu göndərdi və cavab istədi. Buna görə də, qarşı tərəfdən istədikləri cavabı ala bilmədilər. Rusiya bu prosesdən uduşsuz çıxdı.

> "Danışıqlar yenidən Normand formatında aparılacaq"

Rusiya həmişə elə bir siyasət yeridib ki, bəşəriyyət üçün təhlükəli olub. Ona görə də Avropanın indiki çağırışı təbiidir və davamı olacaq. Bu müraciət daha çox Rusiyaya ünvanlanıb. Çünki Putinin ortalığa qoyduğu tələblər beynəlxalq hüquqa uyğun deyil. Qarşı tərəfin tələblərini, yəni post-sovet məkanında yerləşən münaqişə ocaqlarından Rusiya qoşunlarının çıxarılmasını da ruslar qəbul ertmirlər. Yəqin ki, daha çox Normand (dördlük) formatı çərçivəsində danışıqlar, müzakirələr aparılacaq. Qərb çalışır ki, gərginliyi azaltsın. Rusiya isə öz mövqelərini, nüfuzunu qorumaq üçün hələ müəyyən addımlar atmağa davam edir. Amma vəziyyət əvvəlki kimi deyil. Gərginliyin tempi getdikcə aşağı düşür. Ancaq bir aqressiya var və bəşəriyyət bunu hiss edir. Tomas Qremingerin sözlərini növbəti sülhə çağırış kimi dəyərləndirmək lazımdır", - deyə ekspert bildirib.

**Sənan İsmayıl**

# Masallıda 15 yaşlı qız ərə verilir

## Toy mərasimi baş tutarsa, hər iki ailə məsuliyyətə cəlb ediləcək



**Sosial şəbəkələrdə 15 yaşlı qızın ərə verilməsi ilə bağlı yayılan məlumatlarla əlaqədar artıq Masallı rayon İcra Hakimiyyətinin Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının əməkdaşları ailədə olublar.**

Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi məlumat verib.

Bildirilib ki, fakt araşdırılıb: "Məlum olub ki, iki ailə arasında kiçik razılaşma mərasimi baş tutub. Ailə ilə aparılan söhbətdən sonra bildirilib ki, azyaşlının 18 yaşı tamam olana qədər toy mərasimi baş tutmayacaq. Komissiyadan o da əlavə edilib ki, oğlanın valideynləri də rayon İcra Hakimiyyətinə dəvət edilib, onlarla da söhbət aparılacaq. Qeyd olunacaq ki, toy mərasimi baş tutarsa, hər iki ailə məsuliyyətə cəlb ediləcək".

*Hazırda məsələ Masallı rayon İcra Hakimiyyətinin Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının nəzarətindədir.*

# Cərimələr həmişə fayda vermir

İctimai nəqliyyatı nizama salmaq üçün çox işlər görülməlidir, amma mümkün deyil




”Məmurlar artıq şəhərin mərkəzində elə binalar tikib ki, orada artıq tramvay, trolleybus hərəkət edə bilməyəcək”

**Hazırda Azərbaycan cəmiyyətində tez-tez tənqid atəşinə tuş gələn qurumlardan biri də məhz Bakı Nəqliyyat Agentliyidir. Adıçəkilən təşkilatla bağlı az qala cəmiyyətin bütün təbəqəsi - fəhlə, usta, həkim, müəllim, deputat, jurnalist narazılıq ifadə edir.**

**Mövzu ilə bağlı ”Şərq”ə danışan nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bildirib ki, parklanma ilə bağlı cərimələrdən narazılıq edən çoxdur:**

”Hər dəfə yeni bir addım atılanda, orada müəyyən narazılıq və problem yaranır. Xüsusilə də əgər burada cərimə məsələsi varsa, etiraz mütləq baş qaldırır. Bakı Nəqliyyat Agentliyi (BNA) paytaxtda əsasən parklanma ilə bağlı cərimələri çox yazır. İnsanlar da bundan narahat və narazıdır. Bu da təbiidir. Sabah eyni cəriməni yol polisi yazsa, ondan da narazı olacaqlar, bələdiyyə yazsa, onu da tənqid edəcəklər ki, düz etmir. Mən də başa düşürəm ki, düz etmir. Çünki parklanma üçün birinci növbədə şərait yaratmaq lazımdır, ictimai nəqliyyat sahəsində nəqliyyatı qaydaya salmaq gərəkir. Taksi fəaliyyəti ilə bağlı xaotik vəziyyət yoluna qoyulmalıdır. Bunların hər birinə eyni vaxtda başlanması və hamısının da yarımçıq qalması tənqidi məqamları ortaya çıxır”.

**Ekspert BNA-nın yarandığı gündən xeyli iş gördüyünü də vurğulayıb:**

”Məsələn, avtobus parkının yenilənməsi, avtobuslarda kart sisteminə keçid, sürücülərin nəzərət altında olması BNA-nın gördüyü işlərdir. Ancaq istənilən halda əgər cərimə məsələsi varsa, mütləq tənqid olacaq. Keçmiş Nəqliyyat Nazirliyinin vaxtında məgər onu tərifləyirdilər?! Hər gün Ziya Məmmədovu ”ağ yuyub, qara sərirdilər”. Eyni zamanda onun mətbuat katibi Namiq Həsənovu da tənqid edirdilər. İndi eyni işi BNA görür, hücumu ona edirlər. Yəni bizim cəmiyyət belədir. Kim ona cərimə yazırsa, ondan narazıdır. Meşəbəyi ağacı kəsənə belə cərimə yazanda, ondan da narazılıq edirlər. Adam var ki, boş-boşuna gün ərzində 500-1000 manat xərcləyir, onu yandırmır. Amma telefonuna cərimə mesaj gələndə o da narazı qalır. BNA Bakını yenidən söküb-tikə bilməz. Çünki Bakıda BNA-dan da böyük, daha çox sözü keçən məmurlar, oliqarxlar var ki, gecəylə bina inşa edirlər, səkidə dönərxana tikirlər, avtobus dayanacağında peraşki köşkü qoyurlar. Bununla da razı deyiləm ki, BNA layihə işləyən kimi Avropa ölkələri və başqa ölkələrlə özünü müqayisə edir. Dəfələrlə onların ən vəzifəli şəxslərinə demişəm ki, siz müxtəlif ölkələri misal gətirirsiniz. Deyirlər ki, bəli. Cavab verirəm ki, həmin ölkədə heç kim səkidə bina tikmir. Amma Azərbaycanda tikirlər. Elə ölkələrdə avtobus dayanacaqlarında dönər satmırlar, aptek tikmirlər. Amma bizdə bunu edirlər və heç kim də ona heç nə demir. Ona görə bu situasiyada BNA Avropa yox, lap Marsda olan bir yeniliyi gətirib Azərbaycana tətbiq etmək istəsə, bunun effekti olmayacaq. Avtomobilləşmə də sürətlə gedir. Çünki ictimai nəqliyyat bərbad vəziyyətdədir. Məcbur qalıb avtomobil alan insanlar var. Elə insanlar olur ki, uşaqları dərsə çatdıra bilmədiyinə görə kreditlə müəyyən şərtlər daxilində avtomobil alır”.

**E.Muradlı BNA-nın görməli olduğu işləri də sadalayıb:**

”Birinci, ictimai nəqliyyatı qaydaya salsınlar, ictimai nəqliyyatın digər növlərini yaratsınlar, trolleybus, tramvay kimi xətləri işə salsınlar. Amma bunu edə bilmirlər. Çünki məmurlar artıq şəhərin mərkəzində elə binalar tikib ki, orada artıq tramvay, trolleybus hərəkət edə bilməyəcək. Belə olan halda hamını ucdantutma cərimələmək fayda verməyəcək. Demişəm, yenə də təkrar edirəm, cərimə vəziyyətdən çıxış yolu deyil. Ölkə rəhbəri də çıxışında bəyan edib ki, əvvəlcə şərait yaratmaq, sonra cərimələmək lazımdır. Biz hələ ki, o şəraiti görmürük”.

**Çimnaz Şahlar**



# Xalq artisti xəstəxanaya yerləşdirildi

**Xalq artisti Valeh Kərimov koronavirusa yoluxub.**

Axşam.az xəbər verir ki, aktyor hazırda Ağdaşda xəstəxanaya yerləşdirilib. ”Bəxt üzüyü” filmindəki ”Moşu Göyəzənli” obrazı ilə tanınan V.Kərimov özünü yaxşı hiss etdiyini bildirib.

O qeyd edib ki, Ağdaşda xəstəxanada olmasına səbəb ora tamaşa ilə bağlı getməsi olub. Belə ki, onun rejissorluğu ilə Ağdaş Regional Mədəniyyət İdarəsi yazıçı İsi Məlikzadənin məşhur ”Gəl, qohum olaq” əsərini yenidən səhnələşdirməyə hazırlaşıb. Əsər üzərində yaradıcılıq işi aparan Valeh Kərimov da bu məqsədlə rayona yollanıb.

V.Kərimov əlavə edib ki, sabah (bu gün) Bakıya qayıdacaq.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**




# "Eşitdiyim düzdürsə, alqışlayıram"

Röya Elşad Xosenin evliliyindən danışdı

**Müğənni Röya Ayxan maraqlı açıqlaması ilə diqqət çəkib.**

”Şərq”in məlumatına görə, müğənni ”Şourum” verilişində reper Elşad Xosenin ikinci evliliyinə münasibət bildirib. O, Lətifə adlı xanımla ailə həyatı quran reper barədə müəyyən məqamlara toxunub: ”Xoseni evlilik münasibətilə təbrik etməmişəm. Lakin dəfələrlə səhnədə qarşılaşmışıq. Zəng edib ”Evləndin, təbrik edirəm” demək xüsusiyyəti məndə yoxdur. Ailəsi olmalıdır. Eşitdiyimə görə, xanımının övladı var. Onların nikah mərasimində içəri girəndə balaca uşaq da gəlmişdi. Əgər övladı varsa və ailə həyatı qurubsa, ona qarşı hörmətim çox artdı. Bir qadını qəbul etmək, övladını öz övladı kimi sevmək, Xoseyə yaraşandır. Eşitdiyim, düzdürsə, alqışlayıram”.

**Aygün Tahir**

# Kolbasanın içindən rezin çıxdı

Məhsulun hansı şirkətə məxsus olması açıqlanmalı və dərhal monitorinqlər aparılmalıdır



**Son zamanlar qida sektorunda bir sıra problemlər yaşanır. Əhalinin aldığı və istifadə etdiyi məhsullarda yad cisimlərə, hətta metala, rezinə belə rast gəlinir. Oxşar halla qarşılaşan şəxslərdən biri də jurnalist Tural Tağıyevdir. O, bu barədə öz feysbuk hesabında paylaşım edib. Jurnalist bildirib ki, aldığı kolbasadan rezin çıxıb:**

”İl olub 2022, amma hələ də ərzaq məhsullarının içindən təhlükəli yad cisimlər çıxır. Bilmirəm rezin idi, ya hər nə idisə, yazıq fikir vermədən yeyənlərin halına. Nadir hallarda alıb yeyirəm. Özü də ucuz da deyil... Paylaşmaqda məqsəd - uşaqlara verəndə özünüz kəsib verin!”.

**Qida sektorunda arzuolunmaz vəziyyətlə bağlı ”Şərq”ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirib ki, ərzağın keyfiyyəti ilə heç bir qurum məşğul olmur:**

”Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əsasnaməsinə uyğun olaraq onların əsas istiqaməti qidanın təhlükəsizliyini təmin etməkdir. Keyfiyyət məsələsi qalıb ortalıqda, bununla heç kim məşğul olmur. AQTA da İctimai Şuranın üzvü olaraq, agentliyin bu məsuliyyəti üzərinə götürməyi təklif etmişəm. Ancaq məhsulun içindən metal çıxması o deməkdir ki, bu, doğrudan da təhlükəli vəziyyətdir. Sözügedən təşkilatın pis işləməsinin nəticəsidir. Qida işi ilə məşğul olan hər bir hüquqi və fiziki şəxs mütləq AQTA-da reyestrə daxil olmalıdır və buna nəzarət olunmalıdır. Lakin görünür ki, adıçəkilən qurumun AQTA-da reyestrinə baxan olmayıb”.

**E.Hüseynov vurğulayıb ki, həmin müəssisədə monitorinqlər aparılmalıdır:** ”Məhsulun içərisinə kənar cisim düşürsə, orada gigiyenik qaydalardan, heç bir təhlükəsizlik məsələsindən danışmaq olmaz. Bu, yolverilməzdir. Malın adı açıqlanmalı və orada dərhal monitorinqlər aparılmalıdır”.

**Çimnaz ŞAHLAR**



# Aygün Kazımova plastik-cərrahlara səslənib

”İnkubator cücələri kimi bir-birimizə oxşayırıq”

**”Görürəm ki, biz hamımız bir-birimizə oxşamağa başlamışıq”.**

Bu sözləri Xalq artisti Aygün Kazımova ”Şourum” proqramına açıqlamasında deyib. Müğənni sənət adamlarının plastik əməliyyatla bir-birinə bənzədiyini deyib.

**Kazımova plastik-cərrahlara səslənib:**

”Doğrudan da hamı bir-birinə oxşayır. Kişilərdə də bir üz forması var. Biz hər şeyə normal baxırıq.

Hamını hamıya oxşatmayın. O formanı verən, o şəklə salan bizim gözəl, əziz, sevimli doktorlarımız hamını hamıya oxşatmasınlar. Biz lap inkubator cücələri kimi hamımız... Xanım gəlir ki, istəyirəm belə olum. Xanım və ya bəy bilmir. Bilən qarşısındakı peşəkardır. Həkimlər gərək eyni forma, cizgi, burun, qaş, göz etməsinlər ki, biz də bir-birimizə oxşamayaq”.

# Azercell ahıl yaşına çatmış abunəçilərinin xidmətində!

“Azercell Könüllüləri” və şirkətin Mobil Müştəri Xidmətləri Müharibə və Əmək Əlilləri üçün pansionata səfər edib

**Aparıcı mobil operator ”Azercell Telekom”-un öz əməkdaşlarından ibarət ”Azercell Könüllüləri” xeyriyyə qrupu uzun illərdir ki, əhalinin daha həssas təbəqələri üçün müxtəlif təşəbbüslərlə çıxış edərək fərqli yaş qrupundan olan insanlara öz qayğısını göstərməkdə davam edir.**

Bu dəfə ”Azercell Könüllüləri” öz sovqatları ilə Bilgəh qəsəbəsində yerləşən 9 saylı Müharibə və Əmək Əlilləri üçün Pansionata səfər edib. Könüllülərin həmin sosial xidmət mərkəzinə növbəti səfəri zamanı onları Azercell Mobil Müştəri Xidmətləri də müşayiət edib.

Beləliklə, özünün yeni ”Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!” strateji məqsədi ilə Azercell komandası pansionatda məskunlaşmış təqaüdçü abunəçilərinin rabitə ehtiyaclarını qarşılamaq, onlara bu xidmətlərdən daha rahat şəkildə faydalanmağı mümkün etmək kimi təşəbbüslə çıxış etdi. Ölkədə ilk dəfə olaraq pansionat sakinlərinə yerində və tam təmənnasız xidmət göstərərək Azercell Mobil Müştəri Xidmətləri gün ərzində 50-dən artıq təqaüdçüyə 30-dan çox müştəri əməliyyatı həyata keçirib, yaxınları ilə daha rahat əlaqə yaratmaq üçün mobil telefonun müxtəlif funsksiyalarından yararlanmaqda yardımçı olub. Qeyd etmək lazımdır ki, səfər zamanı bir qayda olaraq Azercell-in Müştəri Xidmətləri Mərkəzlərində göstərilən bütün növ xidmət və əməliyyatlar, o cümlədən yeni təsis, sim kartın dəyişdirilməsi və nömrənin bərpası kimi əməliyyatlar həyata keçirildi. Ahıl yaşlı həmvətənlərimizi rabitə xidmətləri vasitəsilə dünyaya daha yaxın etmək məqsədilə təşkil olunmuş bu təşəbbüsdən pansionat sakinləri çox razı qaldıqlarını söyləyərək Azercell əməkdaşlarına öz minnətdarlıqlarını ifadə etdilər.

Xatırladaq ki, bundan öncə Azercell Mobil Müştəri Xidmətləri mobil rabitə təminatçıları arasında ilk dəfə olaraq Şuşaya səfər edərək iki gün ərzində



hərbçilər, tibbi heyət və Şuşa şəhərinin bərpasında iştirak edən digər işçi heyəti üçün pulsuz rabitə xidmətləri həyata keçirib və növbəti aylar ərzində işğaldan azad olunmuş digər bölgələrə də səfər etməyi planlaşdırır.

”Azercell Könüllüləri” xeyriyyə qrupu da şirkətin digər xidmət strukturları ilə birgə əhalinin daha həssas, daha çox qayğıya ehtiyacı olan təbəqələri üçün bundan sonra da yeni sosial təşəbbüslər həyata keçirməyi qarşısına məqsəd qoyub.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 349



## Kovid uşaqlarda başqa gizli xəstəlikləri qabardır

### Türk professor Səlcuq Yüksel bu barədə məlumat verib

**Koronavirusun bəzi uşaqlarda Multisistemli İltihabi Sindrom (MIS-C) xəstəliyinə səbəb olduğu müəyyən edilib.**

Araşdırmalar koronavirusun bədəndə gizlənmiş virusları oyada bildiyini göstərir. Medicina.az xəbər verir ki, professor Səlcuq Yüksel bu barədə məlumat verib.

Dəri səpgilərinin səbəbini araşdırdığımız tədqiqat zamanı öyrəndik ki, normalda viruslar başqa bir virusa səbəb olmur. Ancaq bu virus MIS-C xəstəliyinə səbəb olduqda, bədənimizdə gizli qalan herpes kimi virusları da oyadır. Üstəlik, kiçik damar müayinələrində biz damarların laxtalarla örtüldüyünü gördük.

Valideyinlər bilməlidir ki, MIS-C xəstəliyi ölümcül bir xəstəlikdir. Uşaqlarda dəridə səpki və qızdırma olduqda, COVID-19 olub-olmamasından asılı olmayaraq, həkimə müraciət edilməsi mütləqdir.

## Polkovnik-leytenantı prezidenti elan ediblər



**Burkina-Fasoda hakimiyyəti ələ keçirən hərbçilərin lideri polkovnik-leytenant Pol-Anri Sandaoqo Damiba ölkənin prezidenti elan olunub.**

Azərtac xəbər verir ki, bu barədə Burkina24 informasiya portalı məlumat yayıb. Portalın məlumatına görə, Damiba, eyni zamanda, Burkina-Faso silahlı qüvvələrinin baş komandanı olub.

Qiyamçıların nümayəndəsi milli televiziya ilə çıxışında onu da bildirib ki, onların yanvarın 24-də həyata keçirdiyi dövlət çevrilişi vaxtı fəaliyyəti dayandırılan ölkə konstitusiyası bərpa edilib.

*Xatırladaq ki, yanvarın 23-də Burkina-Fasoda qiyama qalxan hərbçilər bir gün sonra hakimiyyəti ələ keçiriblər. Onlar ölkə prezidenti Rok Mark Kristian Kaboreni vəzifədən kənarlaşdırıb, konstitusiyanın fəaliyyətini dayandırıb, hökuməti və parlamenti buraxıblar. Lakin bununla eyni vaxtda bəyan ediblər ki, Burkina-Fasonun konstitusiya quruluşuna qayıtmasının qrafiki tezliklə təqdim olunacaq.*





# Möcüzə qurtuluş

### Xoşbəxt ailə bir təyyarə qəzası nəticəsində parçalanıb, dağılıb





**Məlahət Rzayeva**

**8 yaşındaykən bütün ailəsini təyyarə qəzasında itirən Austin Hatch illər sonra təkrar eyni faciə ilə üzləşib. "Şərq" xarici mediaya istinadən həyatında iki dəfə dəhşət dolu hadisə yaşamış insanın müdhiş həyat hekayəsini təqdim edir.**

Amerikalı Austin Hatch mehriban, sevgi dolu ailədə böyüyüb. Atası ilə həkim olub. Anası isə şəfqətli bir ana olaraq evdar qadın kimi ailəsinə, uşaqlarına qayğı göstəririb. Austinin 5 yaşında bir qardaşı və 11 yaşında bacısı olub. Austin anası haqqında ən gözəl ifadələrlə danışır: "O, bizim ən yaxın dostumuz idi. Hamı onu sevirdi. Harda olsaydı, oranı nurlandırırdı. Anam inanılmazdı".

Bacısı balerina olmaq arzusundaydı. Bu, şən, xoşbəxt ailə bir təyyarə qəzası nəticəsində parçalanıb, dağılıb. Həmin gün ailə üzvləri Şimali Miçiqandan birlikdə İndianaya - baba və nənələrini görməyə gediblər. Lakin təyyarə eniş edərkən qəza keçirir. Qəzada Austin anası, bacısı və qardaşı həlak olur. Austin və atası isə qəzadan sağ çıxırlar. "Anamı, bacı-qardaşımı itirməyin kədəri, ağrısı çox boyükdü. Onlarsız necə yaşayacağımı bilmirdim. Onların fotolarına baxırdım, əlimdən düşmürdü şəkillər. Bir də anamın hər səfərdə kitabçaya yazdığı qeydləri oxuyurdum. Bunlarla təsəlli tapmağa çalışırdım", deyir Austin. Atası Stephen oğlunu ovutmaq üçün ona hər cür dəstək olub. Austin basketbolçu olmaq istəyib. Atası onun ən yaxşı dostu olub. Amma Stephen o müdhiş qəzadan 1 il sonra bir qadınla evlənir. Qadının 3 övladı vardı. Austin də yeni ailəni sevir, bir-birileriylə mehribancasına davranırlar. Yeni anam Kim bizim üçün əlindən gələni edirdi. Məni doğma övladı kimi sevirdi. Doğma anamı itirmək çox zordu, amma mən Kim anaya çox minnətdaram. O faciədən sonra ikinci ailə tapmağımız atam və mənim üçün başa gələ biləcək ən xoşbəxt sonluq idi. 2011-ci ilin 15 iyununda Austin Miçiqan Universitetində dövlət hesabına təhsil almaq və basketbol komandasında oynamaq təklifi alır. Austinin sevinci 9 gün çəkir. Atası və analığı Kim ilə Miçiqana uçarkən təyyarə qəzaya uğrayır. Austin ciddi xısarət alır, atası və Kim isə faciəli şəkildə həlak olurlar. Austin başından zədə alır və yaddaşını bir müddət itirir. Xəstəxanada müalicə olunan Austinin oyanması bir neçə ay çəkir. Ayıldığında atasının və ikinci anasının öldüyünü öyrənir: "O an nələr keçirdiyimi anlada bilmirəm. Qəza olmuşdu, mən yenə də anamı və bur dəfə atamı da irmişdim, amma mən yenə sağ qalmışdım". Austinin həyata təkrar bağlanması həkimlərin, dostlarının sayəsində mümkün olub. O, Miçiqan Universitetinə gedib və basketbol komandasında çıxış edib. Gələcək həyat yoldaşı Abby ilə də burada tanış olub. Qız voleybol komandasında oynayırmış. Bir neçə il sonra onlar ailə qurublar. İndi Austin motivasiya çıxışları edir, faciənin içində olmasına rəğmən həyata necə bağlandıından danışır. Və "əgər həyatım bağışlanıbsa, bundan faydalanmalı və insanlara yardım etməliyəm" deyir.

## Hamide Tanır Twitter-də izlənmə rekordu qırdı

### "Kim milyonçu olmaq istəyir?"də maraqlı anlar yaşanıb



**Türkiyənin reytinqli yarışmalarından olan "Kim milyonçu olmaq istəyir?"də maraqlı anlar yaşanıb.**

**Milli.Az baku.ws-ə istinadən xəbər verir ki, aktyor Kenan İmirzalıoğlunun aparıcılığını etdiyi proqrama bu dəfə Hamide Tanır adlı iştirakçı qatılıb.**

**Onu fərqli danışıq tərzi və ona ünvanlanan sual sosial şəbəkələrdə müzakirələr yaradıb. İştirakçıya Avropa ölkələrində yaşanan bir hadisəylə bağlı verilən sual gündəm olub. Proqramın həmin hissəsi kəsilərək bir çox onlayn platformalarda paylaşılıb.**

**Nəticədə 30 milyondan çox baxış sayı toplayaraq Türkiyə tviter tarixindən ən çox izlənilən video olub.**

## İranda şir zooparkın 38 yaşlı əməkdaşını parçalayıb



**İranın Ərak şəhərinin zooparkında faciəli hadisə baş verib.**

**Azərtac İRNA xəbər agentliyinin saytına istinadla xəbər verir ki, zooparkın əməkdaşı şiri yemləmək üçün qəfəsə daxil olarkən qəflətən onun hücumuna məruz qalıb. Şir zooparkın 38 yaşlı əməkdaşını parçalayıb və zooparkdan qaçıb. Zooparkın əməkdaşı həlak olub.**

**Həyata keçirilən tədbirlər nəticəsində zooparkın işçiləri şiri qəfəsə qaytarıblar.**




## NASA yeni planet kəşf etdi

### Burada qış 2 günə bitir, yaz ayı isə cəmi 1 gündür

**Alimlər NASA-nın 2020-ci ildə kainatı izləmiş "Spitzer" teleskopunun görüntüləri əsasında yeni planet kəşf edib. Bu planet indiyədək kəşf edilənlərdən tamamilə fərqlənir.**

"Independent" (Türkcə) yazır ki, planetə "XO-3b" adı verilib. Bu planetdə 1 il, Yer kürəsindəki 1 illə müqayisədə cəmi 3 gündür! Bu planetdə fəsillər qorxunc bir sürətlə bir-birini əvəzləyir. Qış 2 günə bitir, yaz ayı isə cəmi 1 gündür! Tədqiqat qrupunda təmsil olunan Lisa Dang "mövsümi temperatur dəyişikliklərinin dünyamızdakından yüz dəfələrlə güclü olduğunu gördük", deyib. Bu planet "isti Yupiter" sinfinə aid edilib. Bu o deməkdir ki, yeni planetin ölçüləri ən azı Yupiter qədər, ya da ondan daha böyükdür. Planetin kütləsinin Yupiter planetindən 12 qat artıq olduğu zənn edilir. Planetin yaxınlıqdakı ulduzla arasındakı məsafə 6,7 milyon kilometrlik bir məsafədir. Astronomik ölçülərə görə, bu, planetin ulduzla "burun-buruna" dayanması deməkdir. Bu məlumatlar NASA-nın mətbuat konfransında açıqlanıb. Alimlər qeyd edib ki, yeni kəşf edilmiş planetdə mövsümlər ulduzdan gələn radiasiya miqdarına önəmli bir ölçüdə təsir edir. Bu, bizim dünyamızdakı fəsillərlə eyni deyil. Kosmik teleskop həm də planetdə tünd qırmızı əlamətlər görüntüləyib. Bu da planetin son dərəcə qızmar temperatura malik olduğu və istiliyin daxildən qaynaqlandığı anlamına gəlir.

**Məlahət**

## Təbii içki resepti

### Qripdən 1 günə xilas olmaq mümkündür



**Soyuq keçən havalar insanın immun sistemini zəifledir. Bu qarışımla qripdən bir gündə qurtulmaq mümkündür.**

Bu içkinin tərkibi bədənin qüvvətini artırır və antioksidant təsir edir.

Medicina.az həmin qarışımın reseptini təqdim edir:

1 ədəd portağal
1 ədəd limon
1 zəncəfil
1 çubuq darçın
1 alma

Hamısı bir iri çaydana əlavə edilib, üzərinə qaynaq su alınıb, dəmlənilir.

1 litr su
Nanə

**Hazırlanma qaydası:**

Bir litr suyun içərisinə qeyd edilən inqreyentlər əlavə edilib qarışdırılaraq qaynadılır. Daha sonra soyuması üçün kənara qoyulur. Bu içkidən yemək araları istifadə edə bilərsiniz.

## Ana uşağını ayının qəfəsinə atdı

### Dəhşətli anlar kameralarda əks olunub



**Özbəkistanın paytaxtı Daşkənddəki zooparkda yaşananlara şahidlik edənlər dəhşətə gəlib.**

Zooparkı ziyarət edənlər arasında bir qadın körpə uşağı ayının qəfəsinə atıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, müdhiş hadisə müşahidə kameraları ilə qeydə alınıb. Ziyarətçilər "Zuzu" adlı ayını izləyən zaman aralarından bir qadın əvvəlcə körpəni dəmir məhəccərin üzərinə qaldırıb, bir qədər sonra isə uşağı itələyərək aşağı - ayının sərbəst dolaşdığı meydançaya "tullayıb". Görənlər heyrət içində, çaşqın vəziyyətdə, nə edəcəklərini bilməyiblər. Boz ayı yerə çırpılmış uşağa yaxınlaşıb, onu qoxulayıb, sonra isə uzaqlaşıb. Heyvanlara nəzarət edən şəxs cəld qəfəsə daxil olaraq ayını kənara çəkib, təhlükəsizlik xidməti əməkdaşları isə həmin dəqiqələrdə uşağı xilas edib. Qadının körpənin anası olduğu müəyyənləşib. Onun hansı səbəbdən belə qəddarlığa əl atması isə istintaq zamanı müəyyənləşəcək. Qadının uşağı qəsdən qəfəsə atdığı təsdiqlənərsə, onu 15 il həbs cəzası gözləyir. 3 yaşlı körpə xəstəxanaya aparılıb. Körpə yüksəklikdən atıldığı üçün beyin travması keçirib, bədənində müxtəlif zədələr var. Hazırda körpə xəstəxanada həkim nəzarəti altındadır.

**Məlahət**

## "Miss ABŞ" Nyu-Yorkda intihar edib




**"Miss ABŞ" gözəllik yarışmasının 2019-cu ildə qalibi olmuş Çesli Krist Nyu-Yorkda intihar edib. Trend-in məlumatına görə, bu barədə hüquq-mühafizə orqanlarındakı mənbələrə istinadən "New York Post" qəzeti xəbər verib.**

Məlumata əsasən, Ç.Kristin cəsədi bazar günü səhər onun yaşadığı evin küçəsində tapılıb. Polis hadisənin səbəblərini araşdırır.

Gözəllik yarışmasının qalibi intihar etmədən öncə məktub yazıb. O, məktubda bütün əmlakının anasına verilməsini istəyib.